www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Həftəlik qəzet 7-13 yanvar 2026-cı il Çərşənbə № 1 (8850) Qiyməti 1 manat

**Xəbər**

**"Yeni Müsavat" həftəlik nəşrə keçdi**

**Ölkə**

### "Kim güclüdürsə, o haqlıdır" düsturu



Prezidentin yerli telekanallara müsahibəsində yenidən bu mövzuya qayıtması təsadüfi deyil

yazısı səh.9-da

# Yenə nə oldu, Paşinyan?

## Erməni baş nazirin Putinlə görüşdən sonra Rusiyanın adamlarına qarşı yumşalması iki mətləbdən xəbər verir - Bakıdan baxış



yazısı səh.5-də

### "Qəzza sualı"na Bakıdan qoyulan nöqtə

yazısı səh.6-da

### Amnistiya- həbsxanaların "yükü" nə qədər azalacaq?

yazısı səh.10-da

### Futbol əyalətlərə qayıtdı - bəs cənub zonası?

yazısı səh.13-də

### Qərb Rusiyanın "göz yaşları"na inanmır

yazısı səh.8-də

### Oğurlanmış arzular ölkəsi - Venesuela...

yazısı səh.7-də

### Yeni icra başçısı daha üç nəfəri işdən çıxardı

yazısı səh.4-də

### İcbari Tibbi Sığortanın hələ sağaltmadığı yaralar

yazısı səh.12-də

### Qış turizminin "əriyən" problemləri

yazısı səh.14-də

### Partiya sədrindən ictimai nəzarətlə bağlı çağırış

yazısı səh.4-də

### Neftin üzünün "qaralması" ili

yazısı səh.15-də

### Türkiyədə qadağan edildi, bəs Azərbaycanda?

yazısı səh.14-də

# İran üçün hazırlanan "V" planı

## Cənubi Azərbaycan faktoru tez-tez "tarixi fürsət" kimi təqdim edilsə də, Bakı istəmədiyi halda proseslərin mərkəzinə çəkilə bilər

yazısı səh.6-da



*Ayaz Salayev:*

### "Məni tənqidlərin səviyyəsi dəhşətə gətirir"

yazısı səh.11-də



Elxan İbrahimov

### Hamı yenə ondan danışır, o isə...

yazısı səh.4-də



Arzuxan Əliyev

### Seçkilərsiz 4 il - partiyalar "formada" necə qalacaq?

yazısı səh.3-də



## Maaş və pensiyalarda bu qədər artım olacaq

**Prezident İlham Əliyev yerli televiziya kanallarına müsahibəsində son yeddi il ərzində sosial islahatların 4 milyon vətəndaşı əhatə etdiyini bildirib.**

Milli Məclisin deputatı Vüqar Bayramov deyib ki, yalnız ötən il reallaşan 5-ci sosial paket 3 milyondan çox vətəndaşı əhatə etməklə, ölkəmizdə sosial təminat sisteminin daha da gücləndirilməsinə xidmət etdi: "2025-ci ildəki artımlar üçün əlavə olaraq 1,4 milyard manat ayrılıb. Bu isə o deməkdir ki, yalnız 2020-ci ildən sonra Azərbaycan Prezidentinin göstərişi ilə reallaşan paketlərə 7.6 milyard manat əlavə vəsait yönəldilib. 2024-cü ildə respublika üzrə orta aylıq əməkhaqqı 8.1 faiz artmışdırsa, ötən ilin ilk 10 ayında artım 9.4 faiz olub. 2025-ci ilin yekun nominal orta aylıq əməkhaqqı artım faizinin fevral ayının əvvəllərində rəsmi elan ediləcəyi gözlənilir. İlkin gözlənti 9.2 faiz maaş artımıdır.

Bu isə o deməkdir ki, bu aydan etibarən bütün növ pensiyaların indeksləşdirilərək artırılması baş verəcək. 9.2 faiz artırılacağı gözlənilən pensiya artımları 1 milyon 100 mindən çox vətəndaşımıza şamil olunaraq yanvar ayından hesablanacaq. Bu bütün növ əmək pensiyalarını, o cümlədən yaşa görə, əlilliyə görə və ailə başçısını itirməyə görə əmək pensiyaları alan bütün vətəndaşlarımıza şamil olunacaq.

Bu həmçinin o deməkdir ki, 540 manat məbləğində orta pensiya alan vətəndaşımızın pensiyasında bu aydan 50 manata yaxın artım olacaq. Yanvar ayının artımı fevral ayının artımı ilə birlikdə ödəniləcək. Nəticədə, 2026-cı ildə Azərbaycanda orta aylıq pensiyanın təxminən 590 manat olacağı proqnozlaşdırılır, yaşa görə orta pensiya isə 629 manata çatacaq və bu məbləğ 2025-ci illə müqayisədə 7.9%-dən çox artım deməkdir".

## Füzuli Ələkbərov dövlətə 2,2 milyon manat borcunu ödədi



**Sabiq əmək və əhalinin sosial müdafiəsi naziri Füzuli Ələkbərova məxsus "Improtex Group"a daxil olan şirkətlərdən biri olan "İmprotex Industries" MMC külli miqdarda vergi borcunu ödəyib.**

"İmprotex Industries" MMC 2 milyon 223 min manat məbləğində vergi borcunu tam şəkildə dövlət büdcəsinə köçürüb.

Bildirək ki, şirkətin qanuni təmsilçisi sabiq nazirin qardaşı oğlu Ruslan Ələkbərovdur.

Qeyd edək ki, "Improtex" qrupu 1991-ci ildə yaradılıb. Füzuli Ələkbərovun nazir vəzifəsində çalışdığı dövrdə holdinqə onun həyat yoldaşı İradə Ələkbərova rəhbərlik edib.

Hazırda şirkətlər qrupuna "İmprotex Trucks & Buses", "İmprotex Industries", "İmprotex Motors" və "Imagro" kimi törəmə şirkətlər daxildir. (Mənbə: teleqraf)

## 74 stomatoloqun "fişi" çəkildi



**Azərbaycanda ötən il ərzində 74 stomatoloqun qanunsuz fəaliyyəti aşkarlanıb.**

Bu barədə Səhiyyə Nazirliyi Analitik Ekspertiza Mərkəzindən məlumat verilib.

Bildirilib ki, həmin müddətdə 33 lisenziya şərtləri sualı üzrə, 16 lisenziya olmadan iş və fəaliyyət, 8 lisenziyadan kənar iş və fəaliyyət, 9 sertifikasiya şəhadətnaməsi olmadan özəl tibb fəaliyyəti ilə məşğul olma faktı, 2 lisenziya olmadan iş və fəaliyyət, sertifikasiya şəhadətnaməsi olmadan və lisenziyadankənar özəl tibb fəaliyyəti ilə məşğul olma faktı, 5 sertifikasiya şəhadətnaməsi olmadan və lisenziyadankənar özəl tibb fəaliyyəti ilə məşğul olma faktı aşkarlanıb.

Bir nəfərdə isə sahibkar tərəfindən yoxlama prosesində yoxlamaya aid sənədlərin yoxlayıcıya təqdim edilməməsinə, yoxlama zamanı yaranan suallara şifahi və (və ya) yazılı izahatlar verilməməsinə, təhrif olunmuş, yanlış məlumatın verilməsinə və ya sahibkarlıq fəaliyyəti üçün istifadə olunan əraziyə, istehsal və emal müəssisələrinə, anbarlara, satış sahələrinə, nəqliyyat vasitələrinə, habelə sahibkarlıq fəaliyyəti üçün istifadə olunan digər yerlərə baxış keçirilməsinə mane olma faktı aşkarlanıb.

# Misir Mərdanovun bacısı oğlu bu vəzifəyə təyin olundu



**Cəzaların İcrasına Nəzarət Baş İdarəsinin rəisi vəzifəsinə təyin olunan Anar Qocayevlə bağlı maraqlı detal məlum olub. "Unikal" xəbər verir ki, baş idarə rəisi təyin edilən A.Qocayev mərhum fizika-riyaziyyat elmləri doktoru Eldar Qocayevin oğludur.**

Qeyd edək ki, Anar Qocayev sabiq polis rəisi Nizami Qocayevin qardaşı oğlu, eks-təhsil naziri Misir Mərdanovun isə bacısı oğludur.

Cəzaların İcrasına Nəzarət Baş İdarəsinin rəisi vəzifəsi təxminən 2 ilə yaxındır vakant idi.




## Qaydalar dəyişdi - hansı banklar bağlanacaq?

**Azərbaycan Mərkəzi Bankı (AMB) yerli banklara kapitalını Bazel III standartlarına uyğunlaşdırmaq üçün 1 il vaxt verib. 1 yanvar 2027-ci ildən bu tələblərə tam riayət edilməlidir. Bəs görəsən, bu tələbə uyğunlaşmayan bankları nə gözləyir? Bağlanan banklar ola bilərmi?**

**İqtisadçı-ekspert Əkrəm Həsənov** Sfera.az-a açıqlamasında bildirib ki, hazırda ölkəmizdə bankların əksəriyyəti Bazel III prinsiplərinə riayət edir: "Bazel III standartlarına riayət etməyən banklara isə 1 il müddətində uyğunlaşmaq üçün vaxt verilib. Bu müddət ərzində standartlara əməl etməyən banklar üçün bir sıra tədbirlər nəzərdə tutulur. Ən sərt tədbir bankın bağlanması ola bilər, lakin bu son hədd hesab olunur. Alternativ olaraq, həmin bank digər sağlam banklarla birləşdirilə və ya satıla bilər. Əgər bank rəhbərliyi həm standartlara əməl etməyəcək, həm də digər banklarla birləşmək istəməyəcəksə, o zaman bağlanma qaçılmaz olur. Beləliklə, Azərbaycan bank sektoru beynəlxalq tələblərə uyğunlaşmaq istiqamətində sistemli addımlar atır. Bu proses həm maliyyə dayanıqlığını artırır, həm də əhalinin və biznesin banklara inamını gücləndirir. Bazel III standartları sayəsində banklar öz kapital bazasını gücləndirir, risklərin idarə olunmasını təmin edir və potensial böhranlara qarşı dayanıqlı olur".

## Azərbaycanda nə qədər uşaq övladlığa verilib?



**Keçən il ərzində Azərbaycanda valideyn himayəsindən məhrum olmuş 149 uşaq övladlığa verilib.**

Bu barədə "Report"un sorğusuna cavab olaraq Sosial Xidmətlər Agentliyindən məlumat verilib.

Qeyd edilib ki, həmin müddətdə 40 uşaq (2024-cü ildə 30) isə himayədar ailələrə yerləşdirilib.

Xatırladaq ki, valideyn himayəsindən məhrum olmuş uşaqların övladlığa götürülməsinin və himayədar ailələrə yerləşdirilməsinin təşviqi məqsədilə işlər davam etdirilir. Həyata keçirilən tədbirlər müvafiq mexanizmlərin davamlı olaraq təkmilləşdirilməsinə, əhatə dairəsinin genişləndirilməsinə, həmçinin uşaqların institusional qayğıdan ailə əsaslı qayğıya keçidinin təmin edilməsinə, onların sağlam inkişafı və cəmiyyətə uğurlu inteqrasiyası üçün əlverişli şəraitin yaradılmasına xidmət edir.

## Arvadını Kürə atan kişiyə hökm oxundu



**Sabirabadda arvadını qətlə yetirməkdə təqsirləndirilən Seyidrəsul Talıbzadənin cinayət işi üzrə növbəti məhkəmə prosesi keçirilib.**

APA xəbər verir ki, Lənkəran Ağır Cinayətlər Məhkəməsində hakim Ənnağı Məmmədlinin sədrliyi ilə keçirilən prosesdə hökm oxunub.

Hökmə əsasən, təqsirləndirilən Seyidrəsul Talıbzadə 11 il müddətə azadlıqdan məhrum edilib.

Qeyd edək ki, hadisə ötən ilin may ayında Sabirabad rayonunda baş verib. 2004-cü il təvəllüdlü Talıbzadə Seyidrəsul Mirmöhsün oğlu aralarında yaranmış münaqişə zəminində 2009-cu il təvəllüdlü N.Ə-ni qətlə yetirib. O, daha sonra meyiti kəndin ərazisində Kür çayına atıb.

Təqsirləndirilən şəxs Cinayət Məcəlləsinin üzrə 120.1-ci (qəsdən adam öldürmə) maddəsi ilə ittiham edilib.




## Qatarlar Xocalıda dayanacaq

**Prezident İlham Əliyev iyulun 3-də Xankəndi Dəmir Yolu və Avtovağzal Kompleksinin təməlini qoyub. Kompleksin sahəsi 6,4 hektar təşkil edəcək. Beşmərtəbəli kompleksin ərazisində 2 dəmir yolu platformasının və 12 avtobus dayanacağının inşası nəzərdə tutulub.**

Bu barədə "Azərbaycan Dəmir Yolları" QSC-dən məlumat verilib.

Qurumdan bildirilib ki, Ağdam-Xankəndi dəmir yolu xəttinin layihələndirilməsi işlərinin 81%-i, tikinti-quraşdırma işlərinin 29%-i yerinə yetirilib. Bundan əlavə, layihə çərçivəsində 3 stansiya (Əsgəran və Xocalı stansiyaları, Xankəndi Dəmir Yolu və Avtovağzal Kompleksi) və 124 ədəd mühəndis qurğusunun inşası nəzərdə tutulur.

Qeyd edilib ki, tikinti işlərinin 2026-cı ilin sonuna qədər başa çatdırılması planlaşdırılır.



## Azərbaycan bu ölkədən 48 milyon dollarlıq şokolad alıb

**Azərbaycan 2025-ci ilin yanvar-sentyabr aylarında Rusiyadan 48 milyon dollar dəyərində məhsul alaraq ilk beş şokolad idxalçısı arasında yer alıb.**

BMT-nin Ticarət platformasına əsaslanan hesablamalara görə, Azərbaycan ötən ilin ilk doqquz ayında Rusiya şokoladının ən böyük beş alıcısı arasında yer alıb.

Qazaxıstan idxal həcminə görə dünyada 192 milyon dollar dəyərində şokolad məhsulları alaraq liderlik edib. Belarus 123 milyon dollar, Özbəkistan isə 68 milyon dollardan çox məhsulla onu izləyir. Azərbaycan da 48 milyon dollar dəyərində şokolad idxal edərək ilk beşliyə daxil olub.

MÜSAVAT
N 1 (8850) 7 yanvar 2026




# Seçkilərsiz 4 il - partiyalar "formada" necə qalacaq?

## Ölkənin siyasi mənzərəsinə baxış: referendum və ya erkən parlament seçkiləri iddiaları...

**Növbədənkənar seçkilər qərarı olmayacağı halda Azərbaycanda 2026-cı ildə seçkilər nəzərdə tutulmur. Ölkədə sonuncu prezident seçkisi 7 fevral 2024-cü ildə keçirilib. Bu seçki növbədənkənar prezident seçkisi olub. Bu seçkinin 2025-ci ilin oktyabrında keçirilməsi nəzərdə tutulsa da, ölkə prezidentinin sərəncamına əsasən, 2024-cü ilin 7 fevralında keçirildi. Növbədənkənar prezident seçkisi Azərbaycanın bütün ərazisində suverenliyi bərpa olunduqdan sonra keçirilən ilk seçki kimi tarixə düşdü. Dövlət müstəqilliyimizin bərpasından sonra ölkənin bütün ərazisində ilk dəfə prezident seçkisi reallaşıb. Seçici fəallığı təxminən 76% civarında olub. İlham Əliyev 92.12% səslə yenidən prezident seçilib.**

Azərbaycanda son parlament seçkiləri də növbədənkənar keçirilib. Milli Məclis buraxılıb, 1 sentyabr 2024-cü il tarixində yeni parlament seçkiləri keçirilib.

Əsas qanunvericiliyə görə, Milli Məclisə seçkilər beş ildən bir noyabr ayının birinci bazar günü keçirilir. Buna əsasən, əgər növbədənkənar seçkilərə gedilməsəydi, parlament seçkisi 3 noyabr 2024-cü il tarixində keçirilməli idi.

Azərbaycanda ən son bələdiyyə seçkiləri isə 2024-cü il 23 dekabrda keçirilməli olan seçkilərin təxirə salınması ilə 29 yanvar 2025-ci ildə baş tutub, bu seçkilər 118 seçki dairəsi üzrə 5000-dən çox məntəqədə 15.000-dən çox bələdiyyə üzvünün seçilməsi üçün aparılıb. Seçkilər ötən beş ilin sonunda keçirilməli idi, lakin digər seçkilərlə əlaqədar olaraq 2025-ci ilin yanvarına təxirə salındı.

Beləliklə, aydın olur ki, əgər qarşıdakı müddətdə növbədənkənar seçkilər qərarı olmayacaqsa, növbəti prezident seçkisi 2031-ci ildə (qanuna görə Prezident 7 il müddətinə seçilir), parlament seçkiləri 2029-cu ildə, bələdiyyə seçkiləri də həmin ilin dekabrında keçiriləcək. Bu isə o deməkdir ki, qarşıdakı 4 ilə yaxın müddət Azərbaycanda seçkilərsiz illər olacaq.

Azərbaycanda seçki komissiyaları isə bu ilin aprelində yeni tərkibdə formalaşdırılmalıdır. Mərkəzi Seçki Komissiyası daxil, bütün dairə və məntəqə seçki komissiyaları sonuncu parlament seçkilərində formalaşmış Milli Məclisin tərkibinə uyğun qaydada formalaşdırılacaq. Lakin qarşıdakı 4 ilə yaxın müddətdə seçkilər olmayacaqsa, seçki komissiyaları "işsiz" qalacaq.

Ancaq o da məlumdur ki, Azərbaycanda konstitusiya dəyişikliyi olacağı ilə bağlı tez-tez iddialar, ehtimallar irəli sürülür. Qeyd olunur ki, ölkəmizin bütün ərazisində suverenliyin bərpa edildiyi, əhalinin sayında ciddi artım olduğu, yerlərdə idarəetmədə dəyişikliklərə ehtiyac yarandığı üçün konstitusiya dəyişikliyi üçün referendum ola bilər. Konstitusiya dəyişikliyi isə ümumxalq referendumu ilə həyata keçirilməlidir. Deməli, əgər konstitusiya dəyişikliyinə gediləcəksə, referendum təyin ediləcək. Prezident İlham Əliyevin yanvarın 5-də yerli telekanallara müsahibəsində söylədiyi "Qarabağda və Şərqi Zəngəzurda tətbiq olunan idarəetmə modeli bəlkə də bütövlükdə ölkəyə tətbiq edilə bilər" fikri isə idarəetmədə dəyişikliyə gediləcəyinin anonsu hesab edilə bilər. Azərbaycan cəmiyyətinin gözlədiyi dəyişikliyin anonsunu ölkə rəhbəri vermiş oldu.

Seçkilərin partiyaların aktiv və işlək formada qalması üçün mühüm faktor olduğu məlumdur. Deyildiyi kimi, növbədənkənar seçkilər olmayacağı halda, 4 ilə yaxın fasilədə siyasi partiyalar necə "formada" qalacaq? Seçki olmaması partiyaları passivləşdirməyəcək ki?

**AMİP sədri, deputat Arzuxan Əlizadə "Yeni Müsavat"a bildirdi ki, seçkilərə hazırlaşmaq və seçkilərdə iştirak etmək siyasi partiyaların əsas vəzifələrindən biridir:** "Seçkilər partiyanın qarşısına qoyduğu hədəflərə çatmaq üçün qanuni imkanlar, fürsətlər yaradan amildir. Ona görə də seçkilərə hazırlıq partiya üçün ən vacib işdir. Seçkilərə hazırlıq təkcə seçki kampaniyası dövrünü əhatə etməməlidir. Siyasi partiya seçkilərə daim hazırlıq işləri aparmalıdır. Belə bir deyim var ki, növbəti seçkiyə hazırlıq keçirilən seçkinin səhəri günü başlamalıdır. Odur ki, seçkilərarası dövrdə də partiyaların görə biləcəyi işlər kifayət qədər çoxdur. Bu, təbii ki, hər partiyanın özündən asılıdır.

Partiya quruculuğunda daim inkişaf, yerli təşkilatların gücləndirilməsi, yeni üzvlərin cəlb olunması, əhali ilə təmasların daim aparılması, beynəlxalq əlaqələrin davamlı genişləndirilməsi kimi işlərə partiyalar xüsusi önəm verməlidir. Bütün bunlar partiyaların fəaliyyətsiz, passiv qalmasını deyil, əksinə, aktivliyini, formada qalmasını təmin edən amillərdir. Partiyalar seçkilərarası dövrdə qətiyyən fəaliyyətsiz qalmamalıdırlar. Qarşıda seçki komissiyalarının yenidən formalaşdırılması prosesi dayanıb. Parlamentdə təmsil olunan partiyalar bu prosesdə iştirak etməlidir. Bir sözlə, qeyd etdiyim və digər çoxsaylı işlər var ki, siyasi partiyaların gündəlik aktiv rejimdə işləməsini özündə ehtiva edir. Mənim digər partiyalara, sadəcə, tövsiyəm ola bilər. Heç kimə "bunları et" deyə iddiada deyiləm. Xüsusi olaraq yalnız öz partiyamız haqqında deyə bilərəm ki, seçki olmasa da, biz gündəlik rejimdə işləyirik. Qərargahımızda saxladığım sahələr üzrə fəaliyyət davam edir. Formadan düşmək və passiv olmaq üçün əsas yoxdur".

❑ **Etibar SEYİDAĞA,**
**"Yeni Müsavat"**

# Prezidentdən yerlərdə idarəetmə dəyişikliyi anonsu



## Prezidentin xüsusi nümayəndəliyinin idarəetmə modeli kimi bütövlükdə ölkəyə tətbiq edilə biləcəyi gündəmdə; deputat: "Bu dövlət idarəçiliyinin..."

**Azərbaycan Prezidenti İlham Əliyev yanvarın 5-də yerli televiziyalara müsahibəsində deyib ki, Qarabağda və Şərqi Zəngəzurda tətbiq olunan idarəetmə modeli bəlkə də bütövlükdə ölkəyə tətbiq edilə bilər.**

Bu, idarəetmədə dəyişiklik anonsu hesab edilə bilərmi? **Milli Məclisin deputatı Elçin Mirzəbəyli** "Yeni Müsavat"a bildirdi ki, Prezident İlham Əliyevin Azərbaycan telekanallarına müsahibəsində Qarabağ və Şərqi Zəngəzurda tətbiq olunan idarəetmə modelinin perspektivdə bütövlükdə ölkə miqyasında tətbiq oluna biləcəyi ilə bağlı səsləndirdiyi fikir dövlət idarəçiliyinin gələcək trayektoriyasına dair ciddi mesajdır: "Bu yanaşma həm institusional təcrübənin nəticəsi, həm də postmünaqişə dövründə formalaşan yeni idarəetmə fəlsəfəsinin ifadəsi kimi qiymətləndirilməlidir. Qarabağ və Şərqi Zəngəzurda tətbiq edilən idarəetmə modeli klassik inzibati-bürokratik yanaşmadan fərqli olaraq, mərkəzləşdirilmiş strateji qərarvermə ilə çevik icra mexanizmlərinin vəhdətinə əsaslanır. Burada əsas prioritetlər təhlükəsizlik, sürətli bərpa, resursların optimal bölgüsü və nəticəyönümlü idarəetmədir. Prezidentin xüsusi nümayəndəlik institutu faktiki olaraq paralel və ağır bürokratik zəncirləri aradan qaldıran, birbaşa məsuliyyət və hesabatlılıq mexanizmi yaradan model kimi çıxış edir. Bu isə idarəetmədə vaxt itkisini minimuma endirir, qərarların icra məsuliyyətini fərdiləşdirir və dövlət siyasətinin təcrübədə real nəticələr verməsini təmin edir. Bu baxımdan, Prezidentin səsləndirdiyi fikir idarəetmədə dəyişiklik anonsu kimi də qəbul edilə bilər. Lakin bu, inqilabi deyil, təkamül xarakterli dəyişiklikdir. Burada söhbət mövcud dövlət idarəetmə sisteminin tamamilə ləğvindən deyil, daha çox səmərəli işləyən mexanizmlərin geniş miqyasda tətbiqindən gedir".

**Deputatın sözlərinə görə, Qarabağ və Şərqi Zəngəzur təcrübəsi göstərdi ki, düzgün seçilmiş kadrlar, mərkəzi siyasi iradə ilə yerli icra arasında birbaşa əlaqə və institusional çeviklik qısa müddətdə ciddi nəticələr doğura bilir:** "Təcrübədən çıxış etsək, belə bir idarəetmə yanaşmasının ölkə üzrə tətbiqi müsbət effekt verə bilər, lakin bu proses mexaniki şəkildə deyil, diferensial yanaşma əsasında həyata keçirilməlidir. Azad edilmiş ərazilər faktiki olaraq "idarəetmə laboratoriyası" rolunu oynayır. Burada yeni texnologiyalar, rəqəmsal həllər, planlaşdırma və nəzarət mexanizmləri sınaqdan keçirilir. Bu təcrübənin bütün ölkəyə şamil edilməsi isə regionların sosial-iqtisadi xüsusiyyətləri, yerli idarəetmə ənənələri və institusional hazırlıq səviyyəsi nəzərə alınmaqla mərhələli şəkildə aparıla bilər. Bu prosesdə əsas müsbət effekt ondan ibarət ola bilər ki, idarəetmədə nəticəyönümlülük və məsuliyyət anlayışı güclənsin, qərarların icra məsafəsi qısalsın, məmur-vətəndaş münasibətlərində səmərəlilik artsın. Eyni zamanda mərkəzi icra hakimiyyəti ilə yerli idarəetmə təsisatları arasında koordinasiya daha sistemli xarakter alsın. Digər tərəfdən, bu modelin uğuru siyasi iradənin davamlılığı və institusional balansın qorunması ilə birbaşa bağlıdır. Güclü mərkəzləşmə effektivlik yaratsa da, paralel olaraq nəzarət, şəffaflıq və hüquqi çərçivə mexanizmlərinin gücləndirilməsi zəruridir".

**Elçin Mirzəbəyli vurğuladı ki, beləliklə, Prezident İlham Əliyevin səsləndirdiyi yanaşma idarəetmədə dəyişiklikdən daha çox, dövlət idarəçiliyinin keyfiyyət mərhələsinin dəyişməsi ilə bağlı siyasi baxışı və iradəni ifadə edir:** "Qarabağ və Şərqi Zəngəzur təcrübəsi göstərir ki, düzgün qurulmuş, çevik və məsuliyyətə əsaslanan idarəetmə modeli real nəticə verir. Bu təcrübənin ölkə miqyasında tətbiqi isə müasir çağırışlar fonunda zəruri görünür. Burada əsas məsələ bu dəyişikliklərin hansı məntiq, hansı dəyərlər və hansı institusional mexanizmlər üzərində qurulacağıdır. Bu günə qədər əldə olunan təcrübə və göz önündə olan nəticələr onu deməyə əsas verir ki, idarəetmədə islahatlarla bağlı vahid baxış bucağı və yol xəritəsi var"

❑ **Etibar SEYİDAĞA,**
**"Yeni Müsavat"**


Vüqar Novruzov

# Yeni icra başçısı daha üç nəfəri işdən çıxardı

**Göygöl Rayon İcra Hakimiyyətinin daha üç əməkdaşı vəzifəsindən azad edilib.**

İqtisadiyyat.az-ın əldə etdiyi məlumata görə, bununla bağlı icra başçısı Vüqar Novruzov müvafiq əmrlər imzalayıb. Əmrlərə əsasən, baş mütəxəssis İlhamə Verdiyeva, sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsini müdir müavini İlqar Məmmədov və həmin şöbənin baş məsləhətçisi Fuad Məmmədov vəzifələrindən azad olunublar.

Daha əvvəl isə RİH-in ictimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri müavini - dini qurumlarla işin təşkilatçısı Babək Rəsulov, həmin şöbənin baş məsləhətçisi Şaiq Qənbərli, Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsi Ariz Eyvazov, eləcə də baş mütəxəssis-sürücü (icra başçısının sürücüsü) Səxavət Əhədov vəzifəsindən azad edilib.

Xatırladaq ki, V.Novruzov ötən il noyabrın 12-də Prezident İlham Əliyevin imzaladığı sərəncamla Naftalan Şəhər İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilərək Göygöl Rayon İcra Hakimiyyətinin başçısı təyin olunub.


Natiq Cəfərli

# Partiya sədrindən ictimai nəzarətlə bağlı çağırış

**Prezident İlham Əliyev yerli televiziyalara müsahibəsində bir çox məsələyə diqqət çəkib, o cümlədən ictimai nəzarətin önəmindən bəhs edib: "Biz hamımız cəmiyyətdə olan problemlərə, kadrlarla bağlı məmur özbaşınalığına - buna daha dözümsüz olmalıyıq, mən başda olmaqla, hamımız daha dözümsüz olmalıyıq. Mənim qərarlarımın bir çoxu məhz ictimai nəzarət nəticəsində verilibdir. Bunu indi ictimaiyyət bilmir, amma yerlərdən gələn siqnallar yoxlanılır və qeyd etdiyim bu uğursuz təyinatlarla bağlı siqnallar yerlərdən gəlir. Əgər yerlərdən siqnal gəlməsə, onda mən haradan biləcəyəm? Onlar bir neçə dəfə yoxlanılır və bir neçə qurum tərəfindən, bir qurum yox, bir neçə qurum ki, burada şəxsi-qərəz olmasın. Ondan sonra bu, öz təsdiqini tapanda artıq qərar qəbul edilir və bütün məmurlar onu bilməlidirlər. Vəzifəyə təyin etmək böyük etimaddır. Ancaq bu etimad əgər məmur tərəfindən doğrulmasa, onda sərəncam da özünü çox gözlətməyəcək".**

**Respublikaçı Alternativ Partiyasının (ReAL) sədri Natiq Cəfərli** Musavat.com-a açıqlamasında bildirib ki, ictimai nəzarət çox önəmli məsələdir: "İctimai nəzarətin institusional dayaqları da möhkəmləndirilməlidir. Bu məsələdə isə media öncül rola malik olmalıdır, o cümlədən bu rol genişləndirilməlidir. İctimai nəzarət olmadan dövlət orqanlarının effektiv fəaliyyət göstərməsi çətindir. Prezident çıxışı zamanı bir daha vurğuladı ki, ictimai nəzarətə ehtiyac var. Bunu həyata keçirərkən vətəndaşların etirazlarını, yaxud gözləntilərini dilə gətirərkən onlara qarşı hər hansı addımların atılması, yaxud maneələrin yaradılması faktları aradan qalxmalıdır. Vətəndaşlar, jurnalistlər, QHT-lər ictimai nəzarətin institusional funksiyalarını yetirə yetirməkdə daha sərbəst olmalıdırlar. Prezidentin çıxışı da bu yöndədir. Düşünürəm ki, bu sahədə müəyyən irəliləyiş olmalıdır və olacaq".

# Hamı yenə ondan danışır, o isə...

## Nəsiminin sabiq icra başçısı Elxan İbrahimov yenidən medianın gündəmində


Elxan İbrahimov

**"Mən Naxçıvanda da xüsusi nümayəndə institutu yaratmışam. Ancaq əfsuslar olsun ki, oraya təyin etdiyim kadr etimadımı doğrultmayıb və buna görə vəzifəsindən çıxarılmışdır". Bu fikri Prezident İlham Əliyev yanvarın 5-də yerli televiziya kanallarına müsahibəsində deyib.**

"Bu yaxınlarda Bakının rayonlarının birinə icra başçısı təyin edilmişdir. Özü də noyabr ayındakı o təyinatda qrup şəklində bir neçə icra başçısı təyin edilirdi. İnsanlara diqqət, iş adamlarına dəyməmək, rüşvətxorluğa, korrupsiyaya qarşı mübarizə, sosial ədalət barədə mənim verdiyim tapşırıqlar, sözlər mətbuatda gedib. Amma təyin etdiyim adamlardan birini mən bir aydan sonra vəzifəsindən çıxartmışam. Yəni bu, məni çox məyus edir. Çünki bilirsiniz, mən artıq 22 ildir ki, bu vəzifədəyəm və bu illər ərzində bir çox kadrları vəzifəyə təyin etmişəm, etimad göstərmişəm. Hər dəfə yeni təyin edilən icra başçısı ilə mənim ya görüşlərim, ya telefonla söhbətim olur. Onların bəziləri televiziyaya, mətbuata verilir, bəziləri verilmir və tövsiyələrim də təxminən çox da dəyişmir. Məyus edən də odur ki, əfsuslar olsun, gənc kadrlar arasında da pozuntulara yol verənlər var. Mən həmişə kadrlara ədalətli olmuşam. Amma etimadı doğrultmayan, əyri yola gedənlər, əlbəttə ki, ya cinayət məsuliyyətinə cəlb edilir, - belə hallar kifayət qədər çoxdur, - ya da ki, inzibati qaydada cəzalandırılır. Nə deyə bilərəm, mən davam edəcəyəm, bu proses hamar deyil. Struktur islahatlarının aparılması təbii ki, vacibdir. Amma saf, təmiz kadrların yetişdirilməsi ondan daha vacib məsələdir və mənim təcrübəm onu göstərir ki, bu, daha vacib məsələdir, nəinki struktur dəyişiklikləri", - deyə dövlət başçısı qeyd edib.

Xatırladaq ki, Elxan İbrahimov Bakı şəhəri Nəsimi Rayon İcra Hakimiyyətinin başçısı təyin edildikdən 47 gün sonra - dekabrın 29-da işdən çıxarılıb. E.İbrahimov özəl şirkətlərdən qeyri-qanuni pul yığdığına görə vəzifəsindən azad edilib.

**Prezident İlham Əliyevin çıxışını "Yeni Müsavat"a dəyərləndirən deputat Aqil Abbas dedi ki, Prezident bir daha toxunulmaz məmur olmadığı fikrini təkrarlayıb:** "Ona görə də heç kəs arxayınlaşıb istədiyi qanunsuzluğu edə bilməz. Lap məmur bir ay işləsin, əgər onun işindən narazılıq varsa, xalqa xidmət etmirsə, barəsində tədbir görüləcək. Odur ki, cənab Prezidentin çıxışından bütün məmurlar nəticə çıxarmalıdırlar. Məsələn, dövlət başçısı Nəsimi rayonuna bir aydır təyin olunmuş icra başçısının işdən azad edilməsindən danışdı. Mən onun konkret hansı fakta görə işdən çıxarıldığını bilmirəm, amma vəzifəyə gələn kimi kollektivi dəyişib, rayondan bir adamını gətirib özünə köməkçi təyin edib, yəni cavandır, əlinə imkan düşübsə, özbaşınalıq edib. Ona görə də nə qələt edibsə, bu barədə məlumat Prezidentə çatıb və dərhal vəzifəsindən azad edilib. Eləcə də Naxçıvanda Fuad Nəcəflinin fəaliyyəti, görünür ki, özünü doğrultmayıb və Prezident onu uzaqlaşdırıb. Bu baxımdan, heç bir məmur hesab etməsin ki, toxunulmazdır".

**Deputat dedi ki, kadr hər şeyi həll edir:** "Kadr yerində olanda həmin nazirlik, yaxud komitə də işləyir. Sadəcə, kadr seçimi çətin məsələdir. İlk növbədə, yeni gələn kadr əvvəlkinin səhvlərini etməməlidir. Bax, özündən qabaqkı məmurun addımlarını təkrar edəndə Nəsiminin icra başçısının gününə düşürsən. İndi çox danışılır ki, icra hakimiyyətlərini ləğv etmək lazımdır. İcra hakimiyyətlərini ləğv etsək nə olacaq? Əvvəla, bu məsələ möhtərəm Prezidentin səlahiyyətindədir. Çünki icra başçıları rayonda dövlət başçısının səlahiyyətli nümayəndələridir, nə baş verirsə, Prezident Administrasiyasına məruzə edirlər, bütün sahələrdə gedən işlər haqda hesabat verirlər. O mənada, icra hakimiyyətlərinin ləğvinin nə verəcəyini biz deyə bilmərik, bu idarəetmə forması Prezidentin səlahiyyətindədir".

Yeri gəlmişkən, Elxan İbrahimovun yerinə hələ yeni təyinat olmayıb. İH-də hazırda iki müavin var: Gülarə Verdiyeva və Zahid Xəlilov. Başçının bir müavini - Ramiz Quliyev bir müddət əvvəl işdən çıxarıldığı üçün onun yerinə hələ təyinat yoxdur. O cümlədən İH baş mühasibi və köməkçisi vəzifələri də boşdur.

Gülarə Verdiyeva Zərdabi adına Pedaqoji İnstitutu, sonra Prezident yanında Dövlət İdarəçilik Akademiyasının Dövlət və Bələdiyyə İdarəetməsi fakültəsini bitirib. İbtidai sinif müəllimi, direktor müavini və direktor vəzifəsində çalışıb. 2013-cü ildən Nəsimi Rayon İcra Hakimiyyətində humanitar məsələlər üzrə müavin vəzifəsində çalışıb, 2017-ci ilin fevral ayından Nəsimi RİH başçısının birinci müavinidir.

Zahid Xəlilov Azərbaycan Dövlət Pedaqoji İnstitutunu bitirib. 1992-1996-cı illərdə Nəsimi Rayon İcra Hakimiyyətində, daha sonra Dövlət Əmlak Komitəsinin Nəsimi rayon şöbəsinin rəisi vəzifələrində çalışıb. 1999-2013-cü illərdə Nəsimi Rayon İcra Hakimiyyəti başçısının müavini, 2013-2015-ci illərdə Nəsimi Rayon İcra Hakimiyyətinin İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri, 2015-ci ildən 2020-ci ilin dekabr ayınadək Nəsimi Rayon İcra Hakimiyyətinin Ərazi idarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsinin müdiri vəzifəsində işləyib. 2020-ci ilin dekabr ayından Nəsiminin icra başçısının müavini vəzifəsində çalışır. YAP-ın ərazi partiya təşkilatının sədridir. Bildirilir ki, Z.Xəlilovun təcrübəsi nəzərə alınaraq, icra başçısının vəzifəsinin icrası ona tapşırılıb.

İddiaya görə, sabiq icra başçısından təkcə rayon ərazisində fəaliyyət göstərən iş adamları şikayətçi olmayıb. Elxan İbrahimov Nəsimi Rayon İcra Hakimiyyətində vəzifə tutan əksər əməkdaşlardan ərizə yazıb könüllü şəkildə işdən getməyi tələb edib.

E.İbrahimovun hazırda harada olduğu haqda məlumat yoxdur, onun telefon zənglərinə cavab vermədiyi bildirilir.

"Yeni Müsavat"

# Yenə nə oldu, Paşinyan?

## Erməni baş nazirin Putinlə görüşdən sonra Rusiyanın adamlarına qarşı yumşalması iki mətləbdən xəbər verir - Bakıdan baxış



**Ermənistanda Rusiya ilə əlaqəli ittihamlar Gümrü şəhərinin müxalifətçi meri Vardan Qukasyanın üzərindən götürülüb. Bu qərar Kremlə yaxın milyarder oliqarx Samvel Karapetyanın istintaq təcridxanasından ev dustaqlığına buraxılmasından qısa müddət sonra verilib. Bu qərarların zaman baxımından üst-üstə düşməsi xüsusi diqqət çəkir. Çünki hər iki addım ötən ilin 22 dekabrında Sankt-Peterburqda MDB-nin qeyri-rəsmi sammiti çərçivəsində Ermənistanın baş naziri Nikol Paşinyanla Rusiya Prezidenti Vladimir Putin arasında keçirilən görüşdən sonra atılıb.**

Görüşün rəsmi detalları açıqlanmasa da, Ermənistan hakimiyyətinin adətən "Moskvanın adamları" kimi təqdim etdiyi fiqurlarla bağlı ardıcıl simvolik addımların təsadüfi olmadığı açıq görünür. Qukasyanın Rusiya ilə mümkün ittifaq formatı barədə səsləndirdiyi fikirlərə görə cinayət məsuliyyətinə cəlb edilməsi Moskvada kəskin reaksiya doğurmuşdu. Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova bildirmişdi ki, Rusiya ilə əməkdaşlığın üstünlükləri barədə mülahizələrdə suverenlikdən imtina çağırışı görmək təəccüblüdür.

Ötən həftəsonu gözlənilmədən Ermənistanın İstintaq Komitəsi Qukasyanın Rusiya ilə əlaqəli ittihamlar üzrə bəraət aldığını açıqlayıb. Hüquq-mühafizə orqanları əvvəllər Moskvanın sərt tənqidinə məruz qalan maddənin niyə ləğv edildiyinə dair hər hansı izahat verməyib. Gümrü merinin vəkili Armais Ayrapetyan bildirib ki, bu cinayət təqibi lap əvvəldən absurd və əsassız idi.

Paralel olaraq Samvel Karapetyanla bağlı proseslər də inkişaf edib. "Taşir" şirkətlər qrupunun sahibi olan Karapetyan dövlətə qarşı cinayətdə ittiham olunur. O, hakimiyyətin "Rusiya agenti" və "beşinci kolon"un tərkib hissəsi adlandırdığı erməni katolikosunun müdafiəsi ilə bağlı açıq çıxışından sonra həbs edilmişdi.

Dekabrın 30-da, Putinlə Paşinyanın görüşündən sonra - məhkəmə qətimkan tədbirini dəyişməyə razılaşıb və Karapetyanı ev dustaqlığına buraxıb, eyni zamanda ona siyasi bəyanatlar verməyi qadağan edib. Paşinyana yenə nə oldu? Bu, seçkiqabağı Rusiyadan aqressiyanı azaltmağa hesablanmış addımlar ola bilərmi? Eyni zamanda Moskva ilə İrəvan blokadada olan nəqliyyat kommunikasiyalarının bərpası ilə bağlı birgə addımlar atmağa razılaşaraq bu siyasi məsələlərin bazarlığına getmiş ola bilərmi?

**Deputat Elşad Musayevin** sözlərinə görə, Paşinyan seçkiqabağı Rusiya ilə münasibətləri sahmana salır ki, qələbəni təmin etmək ağrısız olsun. Onun fikrincə, vaxtı ilə Kreml lideri Köçəryanın azad olunmasını erməni baş nazirdən xahiş etmiş, o da yerinə yetirmişdi: "Görünür ki, MDB sammiti çərçivəsində danışıqlar zamanı Putin Rusiya vətəndaşı olan Karapetyanla bağlı da oxşar istəyini ona çatdırıb, Paşinyan da sözünü yerə salmayıb. Həmçinin Gümrünün keçmiş meri barəsində ittihamı yüngülləşdirməklə Rusiyaya bir reverans edib. Bu, razılaşma kimi görünür və Rusiyanın Paşinyanla işləməyə davam edəcəyi təəssüratı yaradır. Yeni Karapetyan seçkilərdə gözlənilən güclü kampaniyanı qurmaya bilər. Ümumiyyətlə, Paşinyan Rusiya ilə münasibətlərdə son dövrlər yaxınlaşma siyasəti yürüdür. Bu da Bakı-Moskva əlaqələrinin soyuq dövründə diqqəti cəlb edir".

**Deputat Rusiya-Ermənistan arasında ticarət dövriyyəsində hər hansı problem olmadığını, siyasi müstəvidə də artıq bəzi anlaşmalar əldə edildiyini düşünür:** "Karapetyan və Gümrü meri haqda qərar qarşılığında Paşinyan Rusiyadan dəmiryolunun bərpasını xahiş edə bilər. Çünki daha əvvəl belə bir çağırışı olmuşdu. Həmin yolu Rusiya bərpa etməsə, Ermənistan özü düzəltməlidir. Belə çıxır ki, son görüşdə mühüm razılaşmalar əldə olunub. Bu da öz nəticələrini seçkilərdə göstərməlidir. Baxmayaraq ki, Putin keçmiş prezidentləri yada salaraq təbrik etmişdi, amma Köçəryan və Sərkisyanla siyasi dəyişikliklər mümkün deyil. Karapetyan isə siyasi sövdələşmənin nəticəsi kimi evə buraxılmış sayıla bilər. Hər halda, Paşinyan Rusiyanın adamlarına qarşı yumşalmaqla qarşıdakı çətin dövrdə Kreml təhlükəsini xeyli azaltmış oldu".

**Professor Qabil Hüseynli** hesab edir ki, Paşinyan Rusiyadan gözlənilən təzyiqləri neytrallaşdırmaq üçün qabaqcadan bəzi addımlar atmaq məcburiyyətində qalıb. Onun fikrincə, Rusiyanın Ermənistanda ciddi təsirləri hələ də qalmaqdadır və ondan asılılıqlar davam edir: "İlk növbədə dəmiryol xətləri Rusiyanın mülkiyyətidir. İkincisi, rus sərhədçiləri heç yerə getməyib. Elə bugünlərdə Zəngəzurda çəkiliş edən xarici jurnalisti rus hərbçilər saxlamışdı. Bu, nəzarətin olduğuna işarə idi. Eyni zamanda Rusiyanın enerji məhsullarına ehtiyac, Avrasiya İqtisadi Birliyi hesabına əldə olunan qazanc göstərir ki, Rusiyanın Ermənistanda hərbi və iqtisadi təsirləri mövcuddur. Ümumən Paşinyan KTMT məsələsi istisna, digər mövzularda Rusiya ilə siyasətini yaxınlaşdırır. Ölkədə isə seçki yaxınlaşır və belə bir ərəfədə Putinə jesti onun işini asanlaşdıra bilər. Rusiya da anlayır ki, Ermənistanda dəyişiklik üçün imkanlar qalmayıb, alternativ yoxdur və cəmiyyət Rusiyanın namizədini qəbul etməyəcək. Ona görə də Paşinyanla yola davam etməyə üstünlük verilə bilər. Çünki Paşinyan üzüyola adamdır".

**Onun sözlərinə görə, burada fürsətçillik də istisna deyil:** "Qaluzin Azərbaycandan 11 Rusiya vətəndaşını azad etməsini istəyib, amma Bakı addım atmayıb. Paşinyan isə Karapetyanla bağlı xahişi yerinə yetirməklə Rusiyaya yarınır. Əslində Ermənistanla yeni strateji sənəd imzalayan, orada Azərbaycanı ittiham etməyi də unutmayan Avropa İttifaqı görməlidir ki, Moskvaya Bakı, yoxsa İrəvandakı hakimiyyət nə qədər yaxındır..."

Xatırladaq ki, ötən ilin dekabrında Rusiya baş nazirinin müavini Aleksey Overçuk "Ermənistan nə vaxtsa Avropa Birliyi və Avrasiya İqtisadi İttifaqı arasında seçim etməli olacaq" söyləyib. Onun sözlərinə görə, hər iki ittifaqda eyni vaxtda qalmaq mümkün deyil. Overçuk 2025-ci ildə ölkələr arasında ticarətin əhəmiyyətli dərəcədə azaldığını etiraf edib. Lakin bu açıqlama inandırıcı görünmür. Ermənistan sanksiyalardan yayınmaqda Rusiyaya əlahiddə dəstək olur.

❑ **Emil SALAMOĞLU,**
**"Yeni Müsavat"**

# Onu da Maduro kimi oğurlayacaqlar

## Ermənistanda panika

**"Maduronun İvanişvilidən daha çox pulu var idi. Maduro da İvanişvili kimi 14 il hakimiyyətdə qaldı. Maduro da İvanişvili kimi müxalifləri həbs edirdi".**

"Teleqraf" xəbər verir ki, bunu Gürcüstanın keçmiş prezidenti Mixail Saakaşvili Venesuela prezidenti Nikolas Maduronun ABŞ-nin müdaxiləsi ilə devrilməsi barədə danışarkən deyib. "Maduro da müxalifəti zəiflədirdi, necə ki, indi bunu İvanişvili edir. Orada da müxalifət parçalanmışdı, daim küçələrə çıxırdı. Maduronun da dəmir bunkeri vardı, İvanişvilinin də sarayının altında dəmir bunkeri var. Maduro qaçmaq üçün bunkerə çatmağa macal tapmadı, İvanişvili də tapmayacaq.

İvanişvilinin hakimiyyəti daha uzun müddət qoruyub saxlaması üçün heç bir faiz belə şans yoxdur. İvanişvilinin hələ də ölkənin başında olduğu müddətdə Gürcüstanın salamat qalıb-qalmayacağı da başqa bir sualdır", - o bildirib.

**Mixail Saakaşvili hesab edir ki, Venesuelada baş verənlər dünya üçün təhlükəli presedent yaratmayacaq:** "Venesuela hadisəsinin beynəlxalq hüquq üçün təhlükəli presedent yaradacağından narahat olanları sakitləşdirmək istəyirəm: beynəlxalq hüquq hələ 2022-ci ildə (Rusiya Ukrayna hərbi müdaxilə edəndə) ölüb, diktatorun devrilməsi isə son dərəcə yaxşı xəbərdir".

Maraqlıdır ki, Venesuelada baş verən məlum olaylardan sonra gürcülər yox, ermənilər isterikaya düşüb. Bəzi erməni ekspertlər Azərbaycanın bundan istifadə edərək, Ermənistana hərbi müdaxilə edə biləcəyi iddiasını ortaya atıblar. Politoloq Artur Xaçaturyan bu barədə deyib ki, dünyada beynəlxalq hüququn işləməməsi fonunda Bakı istənilən addımı ata bilər. O, hətta bir qədər də irəli gedərək, Azərbaycanın Zəngəzur və Göyçə mahallarını hərbi yolla götürə biləcəyini dilə gətirib: "Əgər sabah Azərbaycan və Türkiyə Zəngəzur və Göyçə məsələlərini güc yolu ilə həll etsələr, nə ABŞ, nə də Avropa buna qarşı çıxmayacaq".

# İran üçün hazırlanan “V” planı

## Cənubi Azərbaycan faktoru tez-tez “tarixi fürsət” kimi təqdim edilsə də, bu bölgədə etnik hərəkatlar nəzarətdən çıxa, Bakı istəmədiyi halda proseslərin mərkəzinə çəkilə bilər

**İranda ötən ilin sonundan başlayan etiraz dalğası davam edir. Məlumata görə, polislə etirazçılar arasında baş verən toqquşmalarda hər gün həyatını itirənlər və çox sayda yaralananlar olur.**

Bəllidir ki, ABŞ Prezidenti Donald Tramp “Truth” platformasında nümayişçiləri dəstəkləyib: “Əgər İran əvvəlki kimi zorakılıq tətbiq edərək dinc nümayişçiləri öldürərsə, Birləşmiş Ştatlar etirazçıların köməyinə gedəcək”.

Trampın bu bəyanatından ilhamlanan İranın sabiq şahzadəsi Rza Pəhləvi xalqı etiraz mitinqlərinə qoşulmağa, xarici dövlətləri isə ona dəstək verməyə çağırıb. Trampın paylaşımından dərhal sonra İranın ali dini lideri xarici müdaxiləyə yol verilməyəcəyini açıqlayıb.

Son bilgilərə görə, ABŞ-yə məxsus bir neçə hərbi reaktiv təyyarə Böyük Britaniya və Almaniyaya köçürülüb, böyük ehtimalla, bu, İrandakı mövcud vəziyyətlə əlaqəlidir.

“C-17 Globemaster” tipli nəqliyyat təyyarələri və 160-cı Xüsusi Aviasiya Əməliyyatlar Alayına məxsus iki "AC-130" təyyarəsi Britaniyanın RAF Feyford hava bazasına eniş edib. “The Sun”un yazdığına görə, bu fəallıq ABŞ Hərbi Hava Qüvvələrinin 12 günlük müharibə zamanı nüvə obyektlərinin bombalanmasından əvvəlki aktivliyi ilə üst-üstə düşür. Ehtimal edilir ki, bu döyüş təyyarələri etirazları zorakılıqla yatıracağı təqdirdə İranın rəhbər şəxslərini hədəfə alacaq.

Nəşr vurğulayır ki, 160-cı Xüsusi Aviasiya Əməliyyatlar Alayı adətən yüksək hədəflərə qarşı sürətli reaksiya və yüksək riskli əməliyyatları yerinə yetirir.

Donald Tramp xəbərdarlıq edib ki, İran İslam Respublikasının qüvvələri etirazçıları qətlə yetirərsə, Birləşmiş Ştatlar son dərəcə sərt reaksiya göstərəcək. Bu, ABŞ Prezidentinin İranda davam edən ümumxalq etirazlarına cavab olaraq son günlərdə səsləndirdiyi ikinci hədədir.




İran üçün çoxdandır hazırlanan “V” planı - yəni ölkənin viran olması region üçün olduqca riskli ssenaridir və Azərbaycan üçün bir sıra ciddi mənfi nəticələr yarada bilər. İran Azərbaycanın cənub sərhədi boyunca tampon ölkə rolunu oynayır. İranın viran olması halında sərhəd boyu nəzarətsiz ərazilər yarana, silahlı qruplar, qaçaqmalçılıq və terror riskləri arta bilər. Bu isə Azərbaycanın sərhəd təhlükəsizliyi üçün böyük hərbi və resurs yükü deməkdir.

ABŞ, İsrail, Rusiya, hətta Çin kimi güclər İran ərazisində və ya ətrafında möhkəmlənə bilər ki, bu da Azərbaycanın birbaşa geosiyasi təzyiq zonasına çevrilməsi anlamına gəlir və balanslaşdırılmış xarici siyasəti çətinləşdirər.

Cənubi Azərbaycan faktoru tez-tez “tarixi fürsət” kimi təqdim edilsə də, bu bölgədə etnik hərəkatlar nəzarətdən çıxa, Bakı istəmədiyi halda proseslərin mərkəzinə çəkilə bilər.

**Siyasi təhlilçi Sona Əliyeva** “Yeni Müsavat”a dedi ki, İrandakı gərginlik təkcə Azərbaycan üçün deyil, onun digər qonşuları - Türkiyə və Pakistan üçün də geostrateji təhdiddir: “Güney qonşumuz artıq daxildə baş verən etirazlara nəzarəti demək olar ki, itirib. Tehran hökuməti sıravi etirazçılara atəş açmağa başlayıb. Hər iki tərəfdən xeyli sayda ölən var. Əgər vəziyyət kuliminasiya nöqtəsinə çatarsa, o zaman ABŞ və İsrailin İrana müdaxiləsi özünü çox gözlətməyəcək. Belə olan halda Azərbaycanın cənub sərhədləri ciddi təhlükə altına düşə bilər. Bu baxımdan, Azərbaycan dövləti, aidiyyəti qurumlarımız həmin istiqamətdə önləyici tədbirlər görməlidir. Bəlkə də artıq bununla bağlı hər hansı hazırlıqlara da başlanılıb. Əgər xarici müdaxilə olarsa, təkcə Azərbaycan sərhədləri yox, Türkiyə və Pakistanın, hətta Türkmənistanın sərhədləri də xaotik vəziyyətə düşəcək. Bəlluclar Pakistana, türkmən və qaşqaylar Türkmənistana üz tutacaqlar. 35 milyonluq Azərbaycan türkləri isə Türkiyə və Azərbaycana pənah gətirəcək. Milyonçu farslar və ali bürokrat təbəqə isə Rusiyaya üz tutacaq. Digər tərəfdən, terror və qaçaqmalçılıq sərhədlərdə at oynadacaq. Yəqin ki, ABŞ və İsrail İrana hücum öncəsi ayrıntı və detalları Bakı və Ankara ilə məsləhətləşəcək”.

**ƏHD Partiyasının baş katibi, politoloq Niyaməddin Orduxanlının sözlərinə görə, əhalisinin 70 faizdən artığı yoxsulluq səviyyəsindən aşağı yaşayan İranda son 3 ildə bu cür geniş aksiyaları keçirilməyib:** “Azərbaycan kökənli olan Pezeşkian prezident seçiləndə biz qeyd edirdik ki, bu bəlkə də İranın dinc yolla inkişafı üçün son şansdır. İranın dini lideri Pezeşkianı müdafiə etməli, ona ciddi islahatlar həyata keçirmək imkanı yaratmalıdır. Biz qonşu İranın dinc, təkamül yolu ilə inkişafını istəyirik. İranın iqtisadi və hərbi gücə əsaslanmayan təkəbbürlü xarici siyasəti, xaricdə böyük maliyyə vəsaiti tələb edən proksi qüvvələrin saxlanılması ölkəyə sanksiyalar tətbiqinə səbəb olub, iqtisadiyyata xarici investisiya cəlbinin qarşısını alıb. Vəziyyətdən çıxmaq üçün dini lider dərhal islahatlara başlanılması barədə göstəriş verməli, dövlət idarəetməsini qanuni yolla xalq tərəfindən seçilmiş prezidentə verməlidir”.

Partiya funksionerinə görə, əgər İranda mərkəzi hakimiyyət çöksə və türklərə qarşı soyqırımı və ya etnik təmizləmə həyata keçirilərsə, o zaman biz dərhal BMT Təhlükəsizlik Şurasında məsələ qaldırmalı, Türkiyə və digər türk respublikaları ilə birlikdə hərəkət etməliyik. Ümid edirəm ki, hadisələr o həddə gəlib çatmaz və İranda böyük islahatlara başlanılar. Pezeşkian İranı yaxşıya doğru dəyişmək gücünə sahibdir. Sadəcə, mollaların siyasətdən bir az kənara çəkilməsi və onu müdafiə etməsi lazımdır".

❑ **Cavanşir ABBASLI, “Yeni Müsavat”**

# “Qəzza sualı”na Bakıdan qoyulan nöqtə

## Dövlət başçısının sülhməramlı missiya ilə bağlı qərarına ekspertlərdən dəstək

**Prezident İlham Əliyev yerli televiziya kanallarına müsahibəsində Qəzza zolağında mümkün beynəlxalq missiyalarda Azərbaycanın iştirakı ilə bağlı yayılan məlumatlara da münasibət bildirib.**

Dövlət başçısı bu məsələdə kimin mandat verəcəyi və onun necə olacağının indiyədək aydın olmadığını qeyd edərək, Azərbaycanın “peace enforcement” əməliyyatlarında iştirak etməyi nəzərdə tutmadığını vurğulayıb. “Azərbaycanın hüdudlarından kənarda döyüşlərdə iştirak etmək mənim tərəfimdən, ümumiyyətlə, nəzərdə tutulmur”, - deyən prezident bildirib ki, biz kiminsə naminə azərbaycanlıların həyatını və sağlamlığını riskə atmaq niyyətində deyilik.



“Bizim başımız bəlada olanda öz taleyimizin hökmünə buraxılmışdıq. Heç kim bizi müdafiə etmirdi. O cümlədən Fələstinə bütün hörmətimə və dərdlərinə şərik olmağıma rəğmən. Axı Fələstin də bizi elə də müdafiə etmirdi. Bəli, İslam Əməkdaşlıq Təşkilatının hamının dəstəklədiyi qətnamələri var idi. Biz buna görə bütün ölkələrə minnətdarıq, eynilə Azərbaycan da həm BMT-də, həm Qoşulmama Hərəkatında, həm də İslam Əməkdaşlıq Təşkilatında həmişə Fələstini və Fələstin dövlətinin yaradılmasını dəstəkləyib. Azərbaycanda Fələstinin səfirliyi də fəaliyyət göstərir, həm də Azərbaycanın maliyyə yardımı sayəsində. Ona görə də mənim mövqeyim həmişə ondan ibarət olub ki, ərəb ölkələrinin məsələlərini ərəb dövlətlərinin özləri həll etməlidir”.

**Hərbi ekspert Ramil Məmmədli** “Yeni Müsavat”a bildirib ki, Azərbaycan sülhməramlı kontingenti göndərməməklə doğru strategiya seçib. Onun sözlərinə görə, hərbçilərimizin anklavın təhlükəsizliyinin təmin olunmasında iştirakına ehtiyac yoxdur və bu, onların həyatı üçün böyük təhlükədir: “Sabah hərbçimiz həlak ola, yaxud yaralana bilər. Bunun məsuliyyətini nə İsrail, nə HƏMAS üzərinə götürəcək. Ona görə də o bölgənin problemlərini elə region dövlətləri həll etməlidirlər. Azərbaycan çox böyük zərurət yaranarsa, bu məsələyə baxa bilər. Üstəlik, bu məsələdə konkretlilik yoxdur. Yəni slühməramlı missiyanın tərkibi, mandatı, səlahiyyətləri müəyyən olunmayıb. Məncə, Türkiyə, Misir, Birləşmiş Ərəb Əmirliyi bu kontingentdə yer ala bilər”.

**Siyasi icmalçı Asif Nərimanlının qeydlərinə görə, İsrailin etirazı ilə üzləşən Türkiyə Azərbaycanın bölgədə iştirakını özünün mövcudluğu baxımından alternativ variant kimi görür. Lakin təhlilçinin fikrincə, HƏMAS və İsrail Trampın Qəzza planının birinci mərhələsini - girovların azad edildiyi atəşkəsi qəbul etsələr də, ikinci mərhələnin başlanmasında maraqlı deyil:** “HƏMAS üçün bu mərhələ tərk-silah edilmək və Qəzzanın idarəçiliyindən imtina deməkdir. İsrail üçün beynəlxalq missiya Qəzzaya tam nəzarət planına uyğun deyil. Trampın Qəzza planının ikinci mərhələsinin tətbiq edilməsi faktiki olaraq dalana dirənib və HƏMAS-İsrail qarşıdurması müəyyən səngimələrlə davam edir. Belə bir vəziyyətdə Azərbaycan bölgəyə sülhməramlı göndərməsi iki təhlükə vəd edir: birincisi, Qəzzaya sülhməramlı kimi daxil olacaq Azərbaycan əsgəri çarpaz atəş altında qalacaq; ikincisi, Azərbaycan siyasi baxımdan həm İsrail, həm ərəb ölkələri, hətta Türkiyə arasında seçimlərlə üzləşəcək ki, bu da münasibətlərdə problemlər yaradacaq”.

❑ **Emil SALAMOĞLU, “Yeni Müsavat”**

YENİ MÜSAVAT
N 1 (8850) 7 yanvar 2026

# Oğurlanmış arzular ölkəsi - Venesuela...

## Simon Bolivarın vətənində "Çavizm" erası başa çatdımı?

**... Hər şey belə başladı - 2002-ci ildə ABŞ Venesuelada hərbi çevriliş planını işə salıb prezident Uqo Çavesi devirmək istəyəndə xalq küçələrə çıxdı. Bu, heç bir liderə qismət olmayan tale idi: venesuelalılar Çavezi dəstəkləmişdi. Bununla argentinalı doktor Çe Gevaranın Latın Amerikasının azadlıq ruhu üçün bu gün də qoyduğu iz - "Çe"izmdən "Çavizm"ə çevrilmişdi.**




### Çaves diktator idi, yoxsa?

Çaveszi çoxu diktator adlandırırdı. Ancaq elə ki, müxalifət narazılıq edirdi, Uqo dərhal Venesuelada növbədənkənar prezident və parlament seçkilərinə qərar verirdi. Nəhayət, elə özünün qalib olduğu son prezident seçkisində Çaves 54,5 faiz, rəqibi Kapriles isə 44,9 faiz səs almışdı. Belə də diktator olar?! Üstəlik, Çavesi müxalif media orqanları nəinki tənqid, hətta təhqir edirdi (halbuki özü əvvəl jurnalist olub- E.S.) Amma "diktator" təhqirlərə gülümsəyirdi.

... Məşhur bir fraza, yaxud aforizm var. Onu sonradan Azərbaycanda müxalifət liderlərindən birinin adına yazırdılar. Əslində Çavesə məxsus tarixi söz idi: "Xalq inqilaba televizordan baxmağı xoşlayır". Venesuela xalqının lideri yəqin ki, bu fikri qəzəbli bir zamanında söyləmişdi. Hər halda, venesuelalılar müasir tarixlərində inqilab etmədi - nə onu, nə siyasi varisi Nikolas Maduronu devirdi.

### "İnsan cildinə girmiş iblis bu binadadır..."

Başqa bir faktı da yada salım: 2006-cı ilin sentyabrında BMT Baş Assambleyasının iclasında çıxışı zamanı Çaves ondan bir gün öncə bu kürsüdə çıxış edən amerikalı həmkarı Corc Buş haqda belə demişdi: **"İnsan cildinə girmiş iblis bu binadadır. Mən hələ də kükürd iyini hiss edirəm. ABŞ prezidenti insan cildinə girmiş iblisdir. O bizə həyatı öyrədir, özünü dünyanın hökmdarı kimi aparır. Ona psixiatr lazımdır. Onun diaqnozu Hiçkokun filmlərindəkindən də ciddidir".**

Necə də müasir dünyamız üçün ibrətamizdir... Sanki çox şey dəyişməyib. Sadəcə, dəyişən Çavesin Venesuelada, Buşun ABŞ-də prezident olmamasıdır. Biri 59 yaşında xərçəngdən dünya ilə vidalaşdı (Fidel Kastronu özünə nümunə sayırdı, müalicəsi Kubada gedirdi - E.S.), digəri isə...

Bəs nədir ABŞ hökumətlərini venesuelalılarla bir-birinə düşmən edən? Bu materikin, bizdən çox-çox uzaqlarda yerləşən, təbiəti qaynar, havası bürkülü olan, insanları emosional coğrafiyanın bölüşə bilmədiyi nədir? Ümumiyyətlə, ABŞ nə istəyir Mərkəzi və Latın Amerikası ölkələrindən? Axı bu ilk deyil?! Tarix boyu Çili, Boliviya, Argentina, Nikaraqua (sandinist hərəkatı), Meksika (Çiapasdakı zapatistlərin bu gün də mübarizəsi) Birləşmiş Ştatların imperializminə qarşı qurbanlar verib. Qəribədir, tarix boyu əsl amerikalılar gəlmələrə (ABŞ) qarşı olub - kim bilir, həqiqətin sərt üzü bəlkə elə bu imiş? Ya da təəccüblü heç nə yoxdur, bəlkə elə Rusiyanın postsovet məkanına münasibətinin inikasıdır..?

### Demokratiya və neft

Çaves 2013-cü ildə həyatla vidalaşır. Buna qədər isə Venesuela neftini milliləşdirmişdi. Bax, bu da ABŞ-nin və Qərbin ona qəzəbinin ən böyük səbəbi idi. Yəni onun idarəetməsi Vaşinqtonu və Avropanı maraqlandırmırdı. Əsas olan dünyada ən böyük "qara qızıl"a malik olan ölkənin öz sərvətini milliləşdirməsi idi. Çaves bununla amerikalılara "od qoymuşdu".

Vaxtilə İtaliyanın baş naziri Berluskoni, Fransa prezidenti Sarkozi Liviyanın prezidenti Qəddafinin əlini öpürdü. Ona görə ki, bu ərəb ölkəsinin neft-qazını sümürürdülər. Gün gəldi, Qəddafi Qərbdən üz çevirdi (ibrətamizdir), neft-qaz razılaşmalarında Avropa ilə anlaşmadı, Ağ Evin qarşısında çadır qurub hər hansı hotelə getmədi və ABŞ-ya meydan oxudu. Və nə vaxt ki Liviyanın enerji resursları Qərb üçün əlçatan idi, Qəddafi Avropanın gözündə nə diktator, nə insan hüquqları düşməni idi. Çünki Qərb də insan haqlarının yox, enerji məhsullarının dostu idi. Amma Qəddafi Qərbdən enerji bazarlığında üz çevirəndə, onun əlini öpənlər marginal ərəblərin əli ilə Liviya liderini küçənin ortasında qətlə yetirdilər.

### Uqo ilə Nikolasın səhvi

Venesuelada baş verənlərin səbəbi həm də budur - dünyanın neftinə görə ən zəngin ölkəsində Çavesdən başlanan yol, yəni yeraltı sərvətlərin milliləşdirilməsi bu ölkənin hakimiyyətini ABŞ ilə düşmən elədi. Əgər Uqo Çaves, ondan sonra sələfi Nikolas Maduro Vaşinqtonun sözünü eşitsəydi, Venesuelada nə kokain biznesi, nə demokratiya, nə insan haqları yada düşərdi. Necə ki, illər əvvəl ABŞ-nin "legitim prezident" saydığı müxalif lider Quaydo unuduldu, son müxalif liderə isə Tramp "zıqqımın kökünü" (zəhər ye - E.S.) verdi. Yəni az qala Pablo Eskobar elan edilən Venesuela prezidenti Maduronun idarəetmə sistemi saxlanıb - ölkəni vitse-prezident idarə edir. Sadəcə, şəxsi səviyyədə cəzalandırma həyata keçirildi. Bu da artıq günlərdir təkrarlanan haqlı mövqedir ki, 3 yanvar gecəsi paytaxt Karakasda keçirilən əməliyyat (xəyanət faktoru şübhəsizdir) beynəlxalq hüququn deqradasiyası idi.

### Neftlə zəngin ölkədə xalqın yoxsul olması...

Maduronun və xələfi Çavesin isə səhvi ən çox neftə malik ölkədə xalqını yoxsul saxlaması, dünyanın ən dominant gücü ilə hesablaşmaması idi. Rəhmətlik Elçibəyin Marqarita Tetçerlə qiymətdə razılaşmayıb "Neft Azərbaycan xalqına məxsusdur" deməsi kimi...

Ona görə də Venesuelada baş verənlər Panamada gerçək diktator Noryeqanın yaşadıqlarının fərqli təkrarıdır. Noryeqanı Madurodan seçən onun elə ABŞ-nin adamı olması, sonra üz çevirməsinə görə cəzalandırılması idi. Nəticədə Panama prezidenti Noryeqanı Maduro kimi öz ölkəsində həbs edib ABŞ həbsxanasına salmışdılar. Beləliklə, oğurlanan talelər, oğurlanan arzular ölkəsi Venesuelada "Çe"vizm deyə bilmərəm, amma "Çavizm" başa çatmış sayıla bilər.

Lakin bir fakt da var - İspaniyanın hegemonluğuna qarşı mübarizə aparmış Simon Bolivarın vətəni çətin ki, bundan sonra imperializmə itaət edə. Sadəcə, Venesuelanın yeni hökuməti neftlə zəngin ölkədə xalqın zəngin yaşamasına şərait yaratmalıdır. Əks halda, SSRİ-nin bir vaxtlar ABŞ ilə sövdələşməyə gedərək Latın Amerikasında dəstəklədiyi sosialist ölkələri FTB-yə qurban verməsi kimi, madurolar çox qurban gedəcək.

Maduro və onun həyat yoldaşı Siliya Floresin Nyu-Yorkda məhkəməyə aparılarkən dünya ictimaiyyətinin gözü önündə son dərəcə aşağılayıcı rəftarla üzləşməsi isə haradasa Rumıniyada Çauşeski ailəsini yada saldı (prezident və həyat yoldaşı edam olundular). Qərbin qəddarlığı əndazə tanımır. Bircə Maduroların güllələnməsi çatmırdı...

### Avtobus sürücülüyündən Nyu-York türməsinə

Məlumat üçün qeyd edək ki, tam adı Nikolas Maduro Moros olan Venesuelanın artıq sabiq hesab olunan dövlət başçısı 23 noyabr 1962-ci ildə paytaxt Karakas şəhərində anadan olub. Maduro Karakasda fəhlə sinfinə mənsub bir ailədə dünyaya gəlib. Atası Nikolas Maduro Qarsiya həmkarlar ittifaqı lideri olub və 22 aprel 1989-cu ildə yol-nəqliyyat qəzası nəticəsində həlak olub. Anası Teresa de Jesus Moros Kolumbiyanın Kukuta şəhərində doğulub.

Maduro iki dəfə evlənib. İlk nikahını Adriana Guerra Angulo ilə bağlayıb və bu evlilikdən Nikolas Maduro Guerra adlı oğlu dünyaya gəlib. "Nicolasito" ləqəbi ilə tanınan oğlu hökumətdə müxtəlif yüksək vəzifələrə təyin olunub.

Daha sonra siyasətçi və hüquqşünas Cilia Floreslə ailə qurub. Cütlük 1990-cı illərdən etibarən münasibətdə olub və rəsmi nikahlarını 2013-cü ilin iyulunda bağlayıb. Maduronun Floreslə bioloji övladı yoxdur.

Maduro siyasi fəaliyyətinə ictimai nəqliyyat sektorunda avtobus sürücüsü və həmkarlar ittifaqı nümayəndəsi kimi başlayıb. 1990-cı illərdə Uqo Çavesin liderliyində yaradılmış Beşinci Respublika Hərəkatının qurucularından biri olub. Çavesin 1992-ci ildəki uğursuz hərbi çevriliş cəhdindən sonra həbsdən azad olunmasında rol oynayan fiqurlardan biri kimi tanınır.

1998-ci il prezident seçkisində Çavesin seçki kampaniyasında regional koordinator kimi fəaliyyət göstərib. 2000-ci illərdə deputat olub, daha sonra isə Milli Assambleyanın sədri vəzifəsinə yüksəlib. 2006-cı ildə xarici işlər naziri təyin edilib və 2012-ci ilə qədər bu postu tutub.

10 oktyabr 2012-ci ildə Çaves tərəfindən dövlət başçısının müavini təyin olunub. Çavesin vəfatından sonra isə dövlət başçısı statusu alıb. 2013-cü il prezident seçkisində az fərqlə qalib gələn Maduro Çavesin sosialist siyasətini davam etdirib.

Onu da deyək ki, Venesuela Cənubi Amerika qitəsinin şimalında yerləşir. Venesuela qərbdən Kolumbiya, cənubdan Braziliya, şimal-şərqdən Trinidad və Tobaqo, şərqdən Qayana ilə həmsərhəddir. Şimal sahillərini Karib dənizi və Atlantik okeanı yuyur. Ərazisi 916,445 kvadrat kilometr, paytaxtı və ən böyük şəhəri Karakas şəhəridir. Karib dənizindəki 70-ə yaxın ada Venesuelaya aiddir. Əhalisi 29 milyon nəfərdir.

❑ **Emil SALAMOĞLU,**
**"Yeni Müsavat"ın redaktoru**

YENİ MÜSAVAT
N 1 (8850) 7 yanvar 2026



# Tut yarpağının şəkli

Zamin HACI
zaminhaci@gmail.com

**Broyler toyuğunu sarı boyayıb "kənd toyuğu" adıyla satmaq istəyənlərin növbətisi Xırdalan tərəfdə aşkar edilmişdir. Bu, müstəqillik tarixi-mizdə maraqlı saxtakarlıq növlərindən biridir. Fabrik yumurtasını palçığa bulaşdırıb "kənd toyuğunun yumurtası" adıyla satan cinayətkar qruplaşmalar da vardır. Mən burada qətiyyən şişirtmə eləmirəm, ictimai-siyasi sabitlik şəraitində əslində bu dəqiqə bizdə ancaq toyuq-yumurta boyayan dəstələr azadlıqda cövlan edir. Qalan bütün quldurlar yaxalanmış, cəmiyyətdən təcrid olunmuşdur.**

Eyni zamanda toyuq və yumurta üzərində aparılan eksperimentlər alimlərimizin "Toyuq əvvəl olub, yoxsa yumurta" elmi sualına cavab tapdığını göstərir: əvvəldə rəng olmuşdur. Rəngləməsən, nə biləsən bu nə quşdur, bu nə "daşdır"? Cümlənin qafiyəli alınmasında məna vardır, vaxtilə görkəmli şairimiz Səməd Mənsur bu vəziyyəti özünün "Rəngdir" adlı şeirində möhtəşəm şəkildə qələmə almışdır: "Uyma, ey dil, xəlqdə yoxdur sədaqət, rəngdir. Məscidü meyxanə rəng, eyşü ibadət rəngdir".

Nəticədə biologiya, zoologiya kimi lüzumsuz elmlərlə məşğul olmağımıza ehtiyac qalmır, camaat döşənib ancaq filologiyadan müdafiə edir. Məsələn, keçən il 23 nəfərə biologiya üzrə, 98 nəfərə isə filologiya üzrə elmlər namizədi adı verilmişdir. Yəqin 23 nəfər "Kənd toyuğunun sarının hansı çaları ilə boyasan kənddə Sarı gəlinin bəslədiyi cücələrə oxşayar" mövzusunu işləmişdir. 98 filoloqumuzun mövzularını, elmə gətirdiyi yeniliyi dövlət sirri kimi qoruyurlar, ancaq zaman keçdikcə üzə çıxır, görürük ki, təxminən elə oxşar elmi kəşflərdir. Məsələn, 100 ilə yaxındır elmi hin və həyətlərimizdə "Milli poeziyamızda qaqqıldamaq gözəllərin təsvir metaforası kimi və bunun dekadens və simvolikada inikasının yumurtavari törəmələri" tipində mövzu müdafiə edən filoloqlarımıza rast gəlinir.

Şəxsən mən buna pis baxmıram. Guya başqa nə iş görməliyik? Örnək üçün, keçən ilki alimlərimiz sırasında məni çox təəccübləndirən "texnika elmləri üzrə" qrafası oldu. 41 nəfər namizədlik, 14 nəfər isə doktorluq müdafiə edib. Hətta texnika elmləri doktorlarımızın sayı filologiya üzrə doktorluq alanlardan da çox çıxmışdır! (Filoloq doktorlar 12 nəfər olub). Bunlar hansı texnikaları kəşf ediblər, nə qayırıblar - məlum deyil. Bəlkə əbədi mühərriki kəşf ediblər? Ya da yağış suyundan elektrik alan o qız böyüyüb? Nəsə, müəmmalı məsələdir.

Texnika alimi var, texnikamız yoxdur. Hara baxırsan elmlər doktorudur, camaat xəstələnəndə doktor tapmır. Adambaşına 10 filoloq düşür, ana dilimizi yadımızdan çıxarmışıq.

Yeri gəlmişkən, keçən il Daşkənddə turizm sərgisində özbək qardaşlarımız "Qaragöz boy, boy" mahnısına rəqs edən robot göstərmişdilər. O zaman mən fikirləşdim ki, bu, nəsə biz türk xalqlarının qanında var, robot görəndə onu oynatmaq istəyirik. AMEA-nın Məşədi İbadın mahnısına oynayan robotu, məsəl üçün.

Qayıdaq boya temasına. Mənə uca millətimizin bu "kənd toyuğu" azarkeşliyi də çatmır. Hamımız şəhərə yığışmışıq, ürəyimiz kənddə qalıb. Belə təbii yemək istəyirsinizsə, buyurun, kəndinizə dönün. Hamı özünə qayıtmalıdır. Bunun bir təzahürü İçərişəhərdə yaşanıb. Orada "Tut ağacı" meydanı varmış, adını dəyişib "Ağa Salah" meydanı qoyublar. Sən demə, bu Ağa Salah bir bəstəkarın və bir vəzifəli şəxsin ulu babasıdır. Bəstəkar deyir həmin meydanı mənim babam düzəldib, tarixi adı qaytardıqları üçün hökumətə minnətdaram.

Əlbəttə. Tut ağacı kimə lazımdır? Bəlkə çoxdan qurudub kəsiblər. Əsas odur "Tut ağacı" mahnımız var. Bir dənə də tut yarpağı rəsmi çəkirsən, oturub baxırsan. O.Henri bu üsulla adamları xilas edirdi, biz isə hələ xəstəxanaya gedirik...



# Qərb Rusiyanın "göz yaşları"na inanmır

## Moskva iddia edir ki, Kiyevin tərəfdaşları mülki şəxslərin həlak olduğu hadisələrdə onları ittiham edir, Ukrayna adekvat zərbə endirəndə isə...

**Ukraynanın Xersona və Vladimir Putinin Novqorod vilayətindəki iqamətgahına PUA hücumu ilə bağlı Rusiyanın iddialarına Qərbin reaksiya verməməsini Moskva kəskin tənqid edir. Moskvanın mövqeyinə görə, Qərb mülki şəxslərin həlak olduğu hadisələrdə yalnız Rusiyanı ittiham edir, lakin analoji hallarda susqunluq nümayiş etdirir.**

Rusiya iddia edir ki, Xersonda mülki əhaliyə qarşı və prezidentin iqamətgahına PUA hücumu terror xarakterlidir. Buna baxmayaraq, Qərb bu hadisələri ya görməzdən gəlir, ya da açıq şəkildə pisləmir.

Rəsmi Moskva Qərbin susmasını Ukraynaya dolayı siyasi və hərbi dəstək kimi qiymətləndirir və bildirir ki, bu yanaşma hücumların davam etməsinə şərait yaradır. Rusiya rəsmilərinin fikrincə, Qərb beynəlxalq hüquqdan yalnız öz maraqlarına uyğun hallarda istifadə edir, Rusiyaya münasibətdə isə eyni prinsipləri tətbiq etmir.

Kremlin mövqeyində vurğulanır ki, bu cür səssizlik regional və qlobal təhlükəsizliyi zəiflədir və münaqişənin daha da dərinləşməsinə səbəb olur.

ABŞ lideri Tramp da Putinə inanmadığını deyərək iqamətgaha hücumu yalan adlandırıb. Yəni kollektiv Qərb bunu Rusiyanın "təbliğat maşını"nın bir hissəsi və hibrid müharibə kimi qiymətləndirir.

Bəs Qərb Rusiyanın göz yaşlarına niyə inanmır?

**Hərbi ekspert Ramil Məmmədlinin** "Yeni Müsavat"a bildirdiyinə görə, Rusiyanın işğal etdiyi ərazilərdə hədəflərin Ukrayna tərəfindən vurulması legitim hesab olunur, bu səbəbdən də mülki infrastruktura zərər dəyəndə Kiyevin tərəfdaşları buna reaksiya vermir: "Qərb Rusiyanın dərinliklərində olan enerji sektoruna zərbələri də pisləmir. Halbuki beynəlxalq konvensiyalara görə, tərəflər döyüşlər zamanı kritik infrastrukturu hədəf almamalıdır. Lakin Rusiya Kiyev və digər şəhərlərdə yaşayış binalarını bombalayır, strateji obyektləri vurur, şəhərlərdə elektrik enerjisi kəsilir və bunu Ukrayna edəndə adekvat cavab kimi dəyərləndirilir. Bu nöqteyi-nəzərdən Qərb Rusiyanın hərbi cinayətlərini pisləyir, amma Ukrayna Xersonda, yaxud Luqanskda hansısa ərazini vuranda buna göz yumur. Bu da məhz onun ərazilərinin işğal altında olmasından irəli gəlir".

**Hərbi təhlilçi hesab edir ki, müharibə davam edəcək və mülki şəxslərin zərər çəkməməsi üçün Moskva ilə Kiyev anlaşma əldə etməlidir:** "Əks halda, dinc əhalinin öldürülməsi halları davam edəcək. Bu da günahsız insanların müharibənin qurbanına çevrilməsinə səbəb olur. Əslində hər iki tərəf mülki əhalini və obyektləri hədəf almamalıdır. Ukrayna işğal olunan ərazilərində rus hərbçilərinə zərbə endirməlidir, yəni oradakı mülki insanlar bundan əziyyət çəkməməlidir. İstənilən halda, həmin Ukrayna vətəndaşları öz ölkəsinin ordusundan narazı qalırlar".

**R.Məmmədli Qərbin Rusiya ilə bütün körpüləri yandırdığını düşünür:** "Beynəlxalq Cinayət Məhkəməsi Putin haqda həbs orderi çıxarıb. Belə bir halda Ukraynanı hərbi cinayətlər törətməkdə ittiham etmək gözlənilmir. Yəni Kiyevi günahlandırmaqla həm Rusiyaya arqument qazandırar, həm də Ukrayna ilə münasibətlərdə soyuqluq yaratmış olarlar. Eyni zamanda Rusiya Putinin iqamətgahına hücumu sübuta yetirə bilməyib. Əgər belə isbat olsaydı, Rusiya çoxdan faktlar təqdim edərdi, Tramp isə Zelenskini günahlandırardı. Hazırkı hibrid savaş döyüş meydanından daha qızğındır. Burada tərəflərin informasiya cəbhəsində müxtəlif manipulyasiyaları müşahidə olunur. Ona görə də Kremlin binası vurulsa belə, Qərb bu məsələyə soyuqqanlı yanaşacaq. Ümumiyyətlə, rus ordusu torpaqları işğal edirsə, müharibəni özü başladıbsa, ona qarşı hücumlardan narazı qalmamalıdır. Heç zaman işğalçı tərəf müdafiə olunmur, hətta onun dinc əhalisi qətlə yetirilsə belə..."

Bildirək ki, yanvarın 6-da da Rusiya qüvvələrinin hücumları nəticəsində Ukrayna şəhərlərində partlayışlar, raket və dron zərbələri qeydə alınıb. Bu hücumlar arasında şəhərlərdə insan itkisi və infrastruktur zədələnməsi də var. Cəbhə boyunca müxtəlif istiqamətlərdə ağır döyüşlər və mərmi atəşləri davam edib. Rusiyanın raket və dron hücumları səbəbindən Ukraynanın enerji infrastrukturu zədələnib. Bu səbəbdən elektrik enerjisi şəxsən məhdudlaşdırılıb və əhali üçün saatlıq kəsintilər tətbiq edilib. Ukrayna tərəfindən isə Rusiyanın müxtəlif bölgələrinə, o cümlədən Rusiya daxilində yerləşən obyektlərə dron hücumları qeydə alınıb.

Müharibə başlayandan bəri cəbhədə ümumi hərbi itkilərin 1,3-1,5 milyon nəfər olduğu ehtimal edilir. ABŞ rəsmilərinin bəyanatlarında isə bu göstəricinin "artıq 2 milyona yaxınlaşdığı" bildirilir. Mülki əhali arasında da itkilər böyükdür. BMT-nin məlumatına görə, indiyədək 14 mindən çox mülki şəxs həlak olub, on minlərlə insan yaralanıb. Təşkilat real rəqəmlərin daha yüksək ola biləcəyini istisna etmir.

Mütəxəssislər Ukrayna müharibəsinin miqyasını digər müasir müharibələrlə müqayisə edərkən qeyd edirlər ki, bu qarşıdurmadakı itkilər artıq İran-İraq və Sovet-Əfqanıstan müharibələrindəki itkilərə yaxınlaşır. Koreya və Vyetnam müharibələrində ölüm sayı 3 milyona qədər yüksəlmişdi. Ukrayna müharibəsi hələ bu həddə çatmasa da, üç il kimi qısa müddət üçün insan itkisi baxımından son dərəcə ağır qiymətləndirilir. Ötən il Ukraynada müharibə nəticəsində 12 azərbaycanlı həlak olub, daha 6-sı isə yaralanıb.

Qeyd edək ki, Ukrayna Silahlı Qüvvələrinin Pilotsuz Sistemlər Qüvvələri yaradıldığı vaxtdan etibarən 7 ay ərzində Rusiyanın təxmini dəyəri 20 milyard dollar olan 168 mindən çox hədəfini məhv edib. Bu barədə Pilotsuz Sistem Qüvvələrinin Facebook səhifəsində məlumat yayılıb. Məlumata görə, göstərilən müddət ərzində dron zərbələrinin sayı 832 mindən çox olub. Məhv edilən hədəflər arasında 532 tank, təxminən 2500 top və haubitsa, 7700-ə yaxın avtomobil texnikası və 5500-dən çox motosiklet var. Həmçinin dron operatorları Rusiya ordusunun 50 mindən çox canlı qüvvəsini zərərsizləşdirib. Əlavə edilib ki, Rusiyanın birbaşa öz ərazisində 350-dən çox hədəf vurulub.

❑ Emil SALAMOĞLU,
"Yeni Müsavat"

# "Kim güclüdürsə, o haqlıdır" düsturu

## Prezidentin yerli telekanallara müsahibəsində yenidən bu mövzuya qayıtması təsadüfi deyil; bu reallıqda Azərbaycan dövləti və xalqı daim güclü olmalıdır

**Prezident İlham Əliyev Yeni il münasibətilə xalqa müraciətində ölkəmizdə sülh, təhlükəsizlik və əmin-amanlıq şəraitinin hökm sürdüyünü xüsusi vurğuladı. Dövlətimizin başçısı əminliklə bildirdi ki, 2026-cı il də Azərbaycan üçün uğurlu olacaq, ölkə qarşısında duran bütün vəzifələr əvvəlki illərdə olduğu kimi, uğurla icra ediləcək. Bu əminliyin real nəticələrini biz ordu quruculuğunda, torpaqlarımızın işğaldan azad edilməsində, xarici təzyiqlərə qarşı prinsipial və qətiyyətli mövqedə aydın şəkildə gördük. Çünki "xalq-iqtidar birliyi bizim uğurlarımızın əsas amilidir".**



Prezident müraciətində 2025-ci ildə şanlı Zəfərimizin beşinci ildönümünü böyük fəxarət hissi ilə qeyd etdiyimizi xatırlatdı. Bildirdi ki, beş il əvvəl Vətən müharibəsində əldə etdiyimiz tarixi Qələbə bizimlə əbədi qalacaq və Azərbaycan xalqı bu Zəfərlə daim fəxr edəcək. Doğrudan da, Vətən müharibəsi zamanı hərbçilərimizin peşəkarlığı, qəhrəmanlığı və fədakarlığı, xalqımızın yumruq kimi birləşməsi Qələbəmizi təmin edən əsas amillər oldu. Qarabağ Zəfəri Azərbaycan xalqının taleyi üçün misilsiz əhəmiyyət kəsb edən hadisə kimi tarixə yazıldı və bu Zəfər haqqında hələ uzun illər danışılacaq.

Şübhəsiz ki, bu Qələbə haqqında danışmaq haqqına ən çox sahib olan şəxs Müzəffər Ali Baş Komandan, Zəfərimizin əsas memarı Prezident İlham Əliyevdir. Onun rəhbərliyi ilə Azərbaycan 30 illik erməni işğalına son qoydu, ərazi bütövlüyünü, suverenliyini və milli ləyaqətini bərpa etdi. Zəfərimizin beşinci ildönümünə həsr olunmuş möhtəşəm hərbi parad isə son illərdə ordu quruculuğu sahəsində görülən işlərin real mənzərəsini həm xalqımıza, həm də bütün dünyaya nümayiş etdirdi.

Həmin paradda dar gündə Azərbaycanın yanında olan Türkiyə və Pakistan liderlərinin Prezident İlham Əliyevlə birlikdə ordumuzun keçidini fəxarətlə izləməsi də xüsusi rəmzi məna daşıyırdı. Ən müasir silahlar, hərbi texnika, aviasiya vasitələri Azərbaycan Ordusunun gücünün göstəricisi idi. Dövlət başçısı son beş ildə Silahlı Qüvvələrimizin potensialının əhəmiyyətli dərəcədə artırıldığını, ordumuzun bu gün istənilən vəzifəni yerinə yetirməyə qadir olduğunu vurğuladı. Yerli istehsal olan silah və texnikalarla yanaşı, xaricdən alınan müasir silah sistemləri də Ordumuzun arsenalına daxil edildi. Xüsusi Təyinatlı Qüvvələrin şəxsi heyəti bir neçə dəfə artırıldı, yeni yaradılmış Komando Qüvvələri minlərlə əsgər və zabiti əhatə edir.

**Bütün bunlarla yanaşı, Prezident xüsusi olaraq bir məqamı diqqətə çatdırdı:** "Biz yeni müharibəyə hazırlaşmırıq. Bizim üçün müharibələr arxada qalıb". Azərbaycan əbədi düşmənçilik yolunu seçməyib. Əksinə, qalib ölkə olaraq məğlub edilmiş Ermənistana sülh əlini uzadıb. Çünki bu, Azərbaycanın uzaqgörən və məsuliyyətli siyasətinin təzahürüdür. Dövlət başçısının dediyi kimi, Azərbaycanın başqa ölkələrin torpaqlarında gözü yoxdur.

Lakin arxayınlaşmaq da olmaz. Çünki 30 illik işğal təkcə Ermənistanın deyil, onun arxasında dayanan anti-Azərbaycan qüvvələrinin də nəticəsi idi və bu qüvvələr bu gün də vəziyyətdən məmnun deyillər. Müasir dünyada beynəlxalq hüququn işləmədiyi, "kim güclüdürsə, o haqlıdır" prinsipinin getdikcə əsas meyara çevrildiyi bir reallıqda hər bir dövlət öz təhlükəsizliyi haqqında ciddi düşünməlidir.

Yeni ilin ilk günlərində baş verən hadisələr də Prezidentin bu fikirlərinin nə qədər əsaslı olduğunu bir daha sübut etdi. Dünya "güclü haqlıdır" sindromunu yaşayır. Azərbaycan isə 44 günlük Vətən müharibəsində apardığı ədaləti və ləyaqətli mübarizə ilə öz prinsipial mövqeyini ortaya qoydu. Hətta kapitulyasiya aktına imza atmış Ermənistana qarşı belə "qalib güclüdür" yanaşmasını nümayiş etdirmədi, əksinə, humanist mövqe sərgilədi, erməni xalqı üçün "çörək yolu" açdı.

Ordunun gücləndirilməsi isə növbəti təhlükələrə hazır olmaq zərurətindən irəli gəlir. Prezidentin vurğuladığı kimi, dünyada genişmiqyaslı silahlanma prosesi gedir və belə bir şəraitdə Azərbaycan hər an öz ərazi bütövlüyünü, suverenliyini və müstəqil seçimlərini müdafiə etməyə hazır olmalıdır.

Ermənistanda isə hazırkı hakimiyyət "real Ermənistan" ritorikasını önə çəksə də, daxili siyasi proseslər, xüsusən revanşist qüvvələrin aktivləşməsi bölgədə sülh üçün ciddi risklər yaradır. Revanşistlərin yenidən hakimiyyətə gəlməsi regionda gərginliyi artıra bilər. Bununla yanaşı, Ermənistanı konfrontasiyaya sürükləyən bəzi xarici paytaxtlar və Avropa təsisatları üçün bölgədə sabitlik deyil, gərginlik daha cəlbedici görünür. Avropa İttifaqının və Avropa Şurasının son qərarları və bəyanatları da bunu təsdiqləyir.

Prezidentin Qarabağa səfərləri zamanı ad çəkmədən etdiyi xəbərdarlıqlar, 2026-cı il dövlət büdcəsində hərbi xərclərin artırılması və təhlükəsizlik məsələlərinə xüsusi yer ayrılması təsadüfi deyil. Dövlət başçısı nəyi, nə zaman və necə demək lazım olduğunu hər kəsdən yaxşı bilir.

Azərbaycan Vətən müharibəsindən sonra Zəfərini beynəlxalq və siyasi müstəvidə möhkəmləndirmək üçün ardıcıl addımlar atıb və buna nail olub. Bu gün Qarabağ məsələsi beynəlxalq gündəlikdən tamamilə çıxarılıb. Azərbaycan Qarabağı və Şərqi Zəngəzuru yenidən qurur. "Böyük Qayıdış" proqramı uğurla icra olunur, azad edilmiş ərazilərdə artıq on minlərlə insan yaşayır, çalışır və təhsil alır. Keçmiş məcburi köçkünlər 32 yaşayış məntəqəsində öz doğma yurdlarına qayıdıblar. Dünyada buna bənzər ikinci nümunə tapmaq çətindir.

Prezidentin yerli telekanallara müsahibəsində yenidən "kim güclüdürsə, o haqlıdır" mövzusuna qayıtması da təsadüfi deyil. Görünür, XXI əsrin əsas devizi məhz budur. Bu reallıqda Azərbaycan dövləti və xalqı daim güclü olmalıdır.

Prezident İlham Əliyevin dünya azərbaycanlılarına müraciəti də xüsusi əhəmiyyət daşıyır. Dövlət başçısı vurğuladı ki, dünyanın harasında yaşamasından asılı olmayaraq, hər bir azərbaycanlının arxasında güclü Azərbaycan dövləti dayanır. Ortaq tarix, dil, mədəniyyət və köklər bütün azərbaycanlıları birləşdirir və onların Ana Vətəni müstəqil Azərbaycan dövlətidir.

Hər bir azərbaycanlı yaşadığı ölkədə özünü təsdiqləməli, varlığını nümayiş etdirməli və gücə çevrilməlidir ki, nə özünə, nə də dövlətinə xətər toxunsun. Qalib ölkənin və xalqın lideri güclü olmağın düsturunu məhz bu şəkildə təqdim etdi.

❑ Elşad PAŞASOY,
"Yeni Müsavat"

## Trampın reytinqi "göylərdə"



**Prezident Donald Tramp ABŞ-nin Venesueladakı iştirakına nəzarət edəcək bir qrup məmurun adını açıqlayıb. Prezident bunu "NBC News"a verdiyi müsahibədə açıqlayıb.**

Trampın sözlərinə görə, Venesuelanın idarə olunmasında aşağıdakı şəxslər iştirak edəcək: ABŞ dövlət katibi Marko Rubio, Pentaqon rəhbəri Pit Heqset, Ağ Evin Baş Qərargah rəisinin müavini Stiven Miller və ABŞ vitse-prezidenti Vens.

"Bu qrup insanlar müxtəlif sahələrdən və ixtisaslardan gəlir. Onların fərqli təcrübələri var", - deyə Tramp bildirib.

ABŞ-nin Venesueladakı idarəçiliyinə əsasən kimin məsul olacağı soruşulduqda, Tramp bir sözlə cavab verib: "Mən".

Eyni müsahibədə Tramp həmçinin Nikolas Maduronun qaçırılmasından sonra prezident vəzifəsini icra edən Venesuela vitse-prezidenti Delsi Rodrigezin ABŞ rəsmiləri ilə əməkdaşlıq etdiyini bildirib. Lakin Amerika liderinin qeyd etdiyi kimi, əməliyyatdan əvvəl onunla heç bir əlaqə olmayıb.

Bundan əlavə, ABŞ prezidenti Rodrigezin əməkdaşlığı dayandıracağı təqdirdə ABŞ-nin ikinci hərbi müdaxiləyə başlaya biləcəyinə işarə edib.

Yeri gəlmişkən, Trampın reytinqi 42%-ə yüksəlib. Bu, "İpsos" və "Reuters" tərəfindən aparılan sorğunun nəticələrindən sonra baş verib və Trampın 2025-ci ilin oktyabr ayından bəri ən yüksək dəstək səviyyəsidir.

Agentlik bildirib ki, Trampın reytinqi dekabr ayında keçirilən sorğuda 39%-dən 42%-ə yüksəlib. Sorğuda həmçinin respondentlərin üçdə birinin ABŞ-nin Venesuelaya hücumlarını bəyəndiyi, 72%-nin isə ABŞ-nin Latın Amerikası ölkəsinin işlərinə həddindən artıq qarışa biləcəyindən narahat olduğu bildirilib.

Sorğu 4-5 yanvar tarixlərində ABŞ-nin 1248 yetkin sakini arasında keçirilib. Səhv ehtimalı təxminən 3 faiz olub.

## Həbsxanada Fədayə Laçına kim bal göndərib?



**Müğənni Fədayə Laçın izləyicilərindən birinin ona yazdığı mesajı paylaşıb. Sənətçi həbsxanada olarkən ona bal göndərən bir şəxsin yazdıqlarına əsəbiləşib.**

Həmin şəxs Fədayəyə mesaj yazaraq "Sizə həbsxanaya bal göndərdim. Efirdə dediniz ki, Manaf Ağayev yanınıza gəlib və bal gətirib. Mənim adımı çəkmədiniz" sözlərini bildirib.

Axşam.az xəbər verir ki, əsəbiləşən sənətçi "Efirdə adları çəkilsin deyə yaxşılıq ediblər. Mən də belələrinin adını çəkməmişəm. Çəkməyəcəyəm də", - deyə paylaşımında yazıb.

## Səfərbərlik Xidmətinin 172 əməkdaşı məsuliyyətə cəlb edilib




**Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti vəzifə səlahiyyətlərindən sui-istifadə halları üzrə 2025-ci il ərzində 172 əməkdaş (onlardan 65-i rəhbər heyət) barəsində intizam tənbehi və təşkilati-ştat tədbirləri görülüb, o cümlədən 9 əməkdaş mənfi əsaslarla ehtiyata buraxılıb və ya əmək müqaviləsinə xitam verilib.**

Ümumilikdə ötən ildə 44 fakt üzrə 93 nəfər barəsində toplanmış materiallar Baş Prokurorluğa göndərilib. Vətəndaşların korrupsiya və digər qanunsuz hallarla qarşılaşdığı təqdirdə 9100 Çağrı Mərkəzinə müraciət etmələri, həmçinin elektron xidmətlərdən yararlanmaq və "MyGov" platformasına qoşulmaq üçün elektron kabinetin yaradılması tövsiyə olunur.

Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti fəaliyyətində şəffaflıq, obyektivlik və ictimai etimadın gücləndirilməsi prinsiplərinə əsaslanaraq korrupsiyaya qarşı mübarizəni bundan sonra da ardıcıl şəkildə davam etdirəcək.

## Amnistiya:



# Həbsxanaların "yükü" nə qədər azalacaq?

### Hazırda ölkəmizdə bir məhbusun yemək xərci il ərzində 8 min 640 manat edir

**Prezident İlham Əliyevin "Konstitusiya və Suverenlik İli" münasibətilə Milli Məclisə təqdim etdiyi amnistiya aktının layihəsi əhatə dairəsinə görə Azərbaycanın müstəqillik dövründə ən genişmiqyaslı amnistiya sənədi kimi qiymətləndirilir. Amnistiya aktının ümumilikdə 20 mindən çox şəxsə şamil ediləcəyi gözlənilir. Bunlardan 5 mindən çox məhkumun azadlıqdan məhrumetmə cəzasından azad ediləcəyi, həmin cəzaya məhkum olunmuş 3 mindən artıq şəxsin cəzasının azaldılacağı, 7 mindən çox məhkumun azadlığın məhdudlaşdırılması cəzasından, 4 minə yaxın məhkumun azadlıqdan məhrumetmə ilə bağlı olmayan digər cəzalardan və ya şərti tətbiq edilmiş cəzalardan, habelə mindən çox şəxsin cinayət məsuliyyətindən azad ediləcəyi proqnozlaşdırılır. Amnistiya aktı 4 ay ərzində icra ediləcək. Qeyd edək ki, indiyə kimi 13 amnistiya aktı qəbul edilib.**

"Yeni Müsavat" xəbər verir ki, Azərbaycanda əfv və amnistiya təsisatları mərhum prezident Heydər Əliyevin dövründə yaradılıb. Belə ki, 1995-2003-cü illərdə 7 amnistiya aktı qəbul edilib. Milli Məclis tərəfindən 22 may 1996-cı il, 17 oktyabr 1997-ci il, 12 may 1998-ci il, 29 dekabr 1998-ci il, 10 dekabr 1999-cu il, 1 fevral 2001-ci il və 6 may 2003-cü il tarixlərində qəbul edilən amnistiya aktları ümumilikdə 77 mindən çox insana şamil edilib, bunlardan 21 min 325 nəfər cəzasının çəkilməyən hissəsindən azad olunub.

Birinci xanım Mehriban Əliyevanın irəli sürdüyü təşəbbüs nəticəsində 2007-ci il mayın 8-də Milli Məclisdə amnistiya aktı qəbul edilib. Bu amnistiya ümumilikdə 9000 nəfərə şamil olunub. Onlardan 1500 nəfər azadlığa buraxılıb, 7500 nəfərin isə cəza müddəti azaldılıb. Milli Məclis 2009-cu il martın 17-də də "Novruz bayramı ilə əlaqədar amnistiyanın elan olunması haqqında" qanun layihəsini qəbul edib. Həmin akt 9 min məhbusa tətbiq olunub, 1700 məhbus azadlığa buraxılıb. Birinci xanımın daha bir təşəbbüsü ilə 2013-cü il 7 may tarixində qəbul edilən qərarla 10040 məhkum barəsində amnistiya tətbiq edilib.

2016-cı ildə isə 28 May - Respublika günü münasibətilə də amnistiya elan edilib. Amnistiya qərarı ümumilikdə 10868 nəfərə şamil olunub. 2018-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi münasibətilə elan edilən amnistiya aktı ən əhatəli aktlardan biri olub. Bu aktdan 15 minə yaxın şəxs faydalanıb.

Zəfər günü münasibətilə də 2021-ci ildə amnistiya elan edilməsi haqqında qərar qəbul edilib. Həmin amnistiya aktı 17 min 267 şəxsə şamil olunub. Amnistiyanın tətbiq olunduğu şəxslərdən 733-ü Vətən müharibəsinin iştirakçısı, 837-si qadın, 65-i yetkinlik yaşına çatmayandır.

Dövlət Statistika Komitəsinin ötən il verdiyi məlumata görə, 1998-2023-cü illər ərzində 297 nəfər barədə ömürlük azadlıqdan məhrumetmə cəzası verilib. Ancaq bu müddət ərzində onlardan bəziləri əfv edilib. Ölüm hökmünün ləğvindən sonra cəzası ömürlük həbsə çevrilənləri və əfv edilənləri nəzərə alsaq, qeyd edə bilərik ki, Azərbaycanda təxminən 300-ə yaxın ömürlük həbs cəzası çəkən var.

Avropa Şurasının məhbus əhali sayı barədə 2021-ci ildəki hesabatına görə, Azərbaycanda həmin vaxt 21012 məhbus olub. Onların 2,7 faizi qadın olub. 2021-ci ildəki sənəddə qeyd olunub ki, son 10 ildə Azərbaycanda məhbus sayında 14% azalma olub: 2018-ci ildə 235, 2019-cu ildə 218, 2020-ci ildə 208 nəfər. Hesabata görə, Azərbaycanda mövcud olan hər 100 həbs yerinə 82.4 məhbus düşür. 2023-cü ildə dərc edilmiş qeyri-rəsmi statistikaya görə isə Azərbaycanda ümumi məhbus sayı 22 334 nəfər olub. Azərbaycanda hər 100 min nəfər əhaliyə 2020-ci ildə 208, 2021-ci ildə 215 məhbus düşüb.

Ölkəmizdə məhbusların sayının sonrakı illərdə 25 mini keçdiyi ehtimal edilir. Hazırda ölkəmizdə bir məhbusun günlük saxlanma xərci 22-24 manat arası edir ki, bu da il ərzində 8 min 640 manata yaxın pul edir.

Bəs Azərbaycanda hazırda neçə cəzaçəkmə müəssisəsi var və ən çox sıxlıq olanlar hansılardır? Və sonuncu amnistiya aktının həbsxanalardakı vəziyyətə təsiri necə olacaq?

**Demokratiya və İnsan Hüquqları Komitəsinin sədri Çingiz Qənizadə** "Yeni Müsavat"a açıqlamasında bildirib ki, sonuncu amnistiya aktına qədər Azərbaycanda olan bütün cəzaçəkmə müəssisələrində sıxlıq **müşahidə olunurdu. Onun sözlərinə görə, son illər həbs olunanların sayı artıb**: "Buraya xüsusilə narkotikə görə həbs olunan məhbuslar aiddir. Dələduzluq və oğurluq da artan xətt üzrə getdiyi üçün cəzaçəkmə müəssisələrində sıxlıq əmələ gəlmişdi. Məhkumların sayı nəzərdə tutulan limitdən artıq idi. Bu da təbii ki, həbsxanalarda nəzarət işinin çətinləşməsinə səbəb olurdu, həm də məhkumların qanunla onlara verilən hüquqları müəyyən qədər çətinliklə reallaşırdı. Məhkumlar konkret yer sayından çox olduğuna görə onların şərait səviyyəsini gündəmdə saxlamaq asan olmurdu. Bu baxımdan amnistiya aktının olması vacib və gözlənilən idi".

**Hüquqşünas bildirib ki, hazırda Azərbaycanda regionlar da nəzərə alınmaqla, 20-dən çox cəzaçəkmə müəssisəsi var**: "Eyni zamanda Naxçıvandakını çıxmaq şərti ilə 3 istintaq təcridxanası fəaliyyət göstərir. Onlardan biri Gəncədə, ikisi isə Bakı şəhərində yerləşir. Amnistiya aktından sonra həm istintaq təcridxanalarında, həm də cəzaçəkmə müəssisələrində sıxlığı yaradan məqamlar aradan qalxacaq".

**Ç.Qənizadə kriminogen durumla bağlı vəziyyəti kafi qiymətləndirib**: "Daxili İşlər Nazirliyi, Baş Prokurorluq, Dövlət Təhlükəsizlik Xidməti müəyyən cinayətlərin üstünü vaxtında açıb, cinayətkarları məsuliyyətə cəlb etməklə bağlı qarşılarına qoyduqları vəzifələri layiqincə yerinə yetirirlər. Amma təəssüf ki, vətəndaşlarımız arasında cinayətə meyllilik artıb. Qeyd etdiyimiz kimi, narkotikdən istifadə, satış halları çoxalıb. Dələduzluq və oğurluq kimi cinayətlər artıb. Onu da nəzərə çatdırım ki, kriminogen durumda artımın olub-olmamasının amnistiya ilə əlaqəsi yoxdur. Doğrudur, amnistiya aktı və ya əfv sərəncamı ilə azadlığa çıxan bəzi şəxslər olub ki, təkrar cinayət törədərək, geriyə qayıdıblar. Ancaq bu, istisna hallarda baş verib. Keçmiş məhkumlar cəzaçəkmə müəssisəsini və onun çətinliklərini görüblər. Bu baxımdan əfv olunmuş şəxslərin yenidən həbsxanaya geri qayıtma statistikası o qədər də yüksək deyil. Bu baxımdan, hesab edirəm ki, 20 minə yaxın şəxsin bu və ya digər formada cəzadan azad edilməsinin kriminogen duruma təsiri o qədər də olmayacaq. Kriminogen vəziyyət tam nəzarət altındadır. Peşəkar hüquq-mühafizə orqanları hər bir cinayət işinin açılması və istintaqının aparılmasını təmin edirlər".

**Sahanə RƏHİMLİ,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 1 (8850) 7 yanvar 2026

# “Məni tənqidlərin səviyyəsi dəhşətə gətirir”

## Ayaz Salayev: “Nə televiziyaya baxıram, nə öz verilişimə”



**Artıq bir müddətdir ki, uşaqlığımızın ayrılmaz xatirəsinə çevrilmiş “Retro” verilişi uzun fasilədən sonra yenidən efirə qayıdıb. Veriliş 2024-cü ilin aprel ayından etibarən “Mədəniyyət” kanalında yenidən yayımlanır.**

*“Yeni Müsavat”ın əməkdaşı bu və digər məsələlərlə bağlı əməkdar incəsənət xadimi, kinorejissor və kinoşünas Ayaz Salayevlə söhbətləşib.*

**- “Retro”nun yenidən bərpası ideyası necə yarandı? Bu təşəbbüs kimdən gəldi?**

- Artıq 74-75-ə yaxın film təqdim etmişəm. Təşəbbüs məsələsinə gəlincə, açığı, bu ideya nə 1983-cü ildə, nə də indi mənim tərəfimdən olmayıb. Məni çağırıblar, mən də gedib iştirak etmişəm. Bu dəfə də dəvət aldım və məmnuniyyətlə razılaşdım. Çünki bu dəfə yalnız Azərbaycan filmləri nümayiş olunurdu və bu mənim üçün də maraqlı idi. Açığını deyim ki, bəzi filmlərə mən də baxmamışdım. Özüm üçün “həm ziyarət, həm də ticarət”dir - baxıram, öyrənirəm. Axı mən Dövlət Film Fondunun direktor müaviniyəm, ayıbdır ki, bəzi filmləri görməyim. İndi isə rahatlıqla deyə bilərəm ki, artıq bütün filmləri izləmişəm. Hər film barədə çalışıram elə bir məlumat verim ki, indiyə qədər heç kim onu deməmiş olsun.

**- “Retro” adətən xarici filmləri təqdim edirdi. İndi isə görürük ki, artıq iki buraxılış ardıcıl olaraq Azərbaycan filmlərinə həsr edilib. Bu dəyişiklik nədən qaynaqlanır? Yerli kinoya dönüş təsadüfdür, yoxsa məqsədli seçimdir?**

- “Mədəniyyət” kanalının rəhbərliyi belə bir qərar qəbul edib, mən də bu təşəbbüsü çox məmnuniyyətlə qarşıladım.

**- Təbii ki, əvvəlki dövrün tamaşaçısı ilə indiki tamaşaçı arasında böyük fərqlər var. Bugünkü tamaşaçıdan o enerjini, o səmimiyyəti və istiliyi hiss edə bilirsinizmi? Tamaşaçı ilə emosional bağ dəyişibmi?**

- İndiki tamaşaçını, sözün doğrusu, mən görmürəm, duymuram. Çünki özümə heç vaxt baxmıram. Təsəvvür edin ki, veriliş artıq iki ilə yaxındır yayımlanır, amma bir dəfə də olsun özümə baxmamışam. Mənə deyəndə ki, kimsə mənim verilişimi bəyənir, çox sevinirəm, hətta bu mənə özüm üçün də çox təəccüblü gəlir. Amma yenə də özümə baxmıram.

**- Səbəb nədir? Ümumiyyətlə, televiziya izləmirsiniz, yoxsa necə?**

- Televiziyaya da baxmıram, özümə də baxmıram. Yalnız onu deyə bilərəm ki, 1983-cü ildən bu günə qədər 43 il keçib, amma bir şey qətiyyən dəyişməyib - hər dəfə çəkilişdən əvvəl həyəcan keçirirəm. Və bilirəm ki, əgər həyəcan keçirməsəm, iş alınmayacaq. Bu gün də, təəssüf ki, 43 il keçməsinə baxmayaraq, etiraf edirəm ki, hiss olunur, mən özüm də görürəm ki, doğma ana dilim mənim ikinci dilimdir, rəsmi dilim deyil. Bu, bu gün də özünü göstərir.

**- Bəzən bu səbəbdən, yəni rusdilli olmağınıza görə müəyyən tənqidlərə məruz qalırsınız. Bu cür yanaşmalar sizi incidir, yoxsa bunu təbii qəbul edirsiniz?**

- İncitməyə qalanda, məni hər şey incidir. Sadəcə, bu tənqidlərin son dərəcə səviyyəsiz olması məni dəhşətə gətirir. Bu günə qədər müxtəlif təbəqələrdən olan insanlar mənə yaxınlaşıb deyiblər ki, “Ayaz müəllim, çox sağ olun, bizim əvəzimizdən siz danışdınız”. Bir gün marketdə yaşlı bir fəhlə mənə yaxınlaşdı və dedi: “Ayaz müəllim, onlar nə danışırlar?” Yəni görürəm ki, məni dəstəkləyənlər daha çoxdur. Əslində bu, çox ciddi məsələdir. Söhbət məndən getmir. Söhbət ondan gedir ki, bu gün taleyüklü bir məsələ var: Azərbaycan hansı yolla inkişaf edəcək? Əgər məni tənqid edən insanlar yüksək səviyyəli şəxslər olsaydı, mən onlarla bir dairəvi masa arxasında oturub müzakirə edərdim, bəlkə də fikrimi dəyişərdim.

**- Sanki “Yarasa” bədii filmindən sonra siz bədii film çəkməkdən bir qədər çəkindiniz. Bu, doğrudan da belədir, yoxsa, sadəcə, yaradıcı pauza idi?**

- Elə olur ki, bir müəllif çox film çəkir, elə də olur ki, yalnız bir film çəkir. Sözün düzü, bunun səbəbini özüm bilmirəm. Siz bununla mənim həyatımın ən vacib sualını verdiniz. Səbəblərdən biri bu ola bilər - bu həm də açıq bir etirafdır - mən “Yarasa” filmini çəkəndə onu o qədər çəkmək istəyirdim ki, film yayımlanacaq, ya yayımlanmayacaq, festivallarda olacaq, ya olmayacaq, bunların heç biri mənim üçün önəmli deyildi. Amma “Yarasa” filmi uğurlu festival həyatı yaşadı və bu, məni bir qədər “korladı”. Elə bil məni zəncirlədi. Halbuki bundan azad olmaq lazımdır. Çünki insan özünü təkrar etməməlidir, mütləq sıfırdan başlamalıdır. Mənim peşəm kinoşünasdır və heç vaxt ustadım olmayıb. Baxmayaraq ki, artıq 65 yaşım var, bu gün də ustada ehtiyacım var ki, yanımda müdrik bir adam olsun və mənə məsləhətlər versin. Təəssüf ki, Azərbaycanda bu cür insanları heç vaxt tapa bilməmişəm. Beləliklə, səbəblərdən biri də budur. Amma çalışacağam ki, yenidən sıfırdan başlayım.

**- Yeni yeni film olacaqmı?**

- Bəli, bir ideya var, üzərində işləyirəm.

**- Mövzu gizlidirmi?**

- Gizli demək olmaz. “Yarasa” filmini çəkəndə onun ideyası məndə çoxdan var idi. Daha sonra torpaqlarımız işğal olundu və mən sənədli layihələr həyata keçirdim. Vətən müharibəsindən əvvəl Qərbi Azərbaycan mövzusunda sənədli salnamə çəkmişdim, onun premyerasını keçirmək istəyirəm. Yəni bu mövzudan kənara çıxa bilmirdim. İndi isə yeni bir ideyam var və bu, sırf psixoloji bir film olacaq. Artıq özüm üçün siyasət mövzusunu bağlamışam. Qarabağ mövzusunda xeyli sənədli filmlər çəkmişəm, layihələr hazırlamışam. Lakin artıq bu mövzuya nöqtə qoymuşam. Torpaqlarımız geri qayıtdı, mən də çiynimdən bu yükü götürdüm və indi xalis psixoloji məhəbbət hekayəsi üzərində film çəkəcəyəm.

**- Qarabağ mövzusundan söz düşmüşkən, bu mövzu Azərbaycan üçün həm son dərəcə ağrılı, həm də qürurvericidir. Buna baxmayaraq, hələ də Qarabağ haqqında beynəlxalq səviyyədə səslənən sanballı, təsirli bir bədii film yoxdur. Sizcə, bunun əsas səbəbi nədir?**

- Açığı desəm, bu mövzuya biganəlik olmamalıdır. Amma çox təəssüf ki, sənət adamları arasında bununla bağlı ciddi bir biganəlik görürəm. Təkcə kinoda yox. Yaxşı, film yoxdur, bəs şeir, roman, opera, simfoniya hanı? Heç nə yoxdur, biganəlik var. 1991-ci ildən 34 il keçib, amma bu gün yeni Tahir Salahovlar, Müslüm Maqomayevlər, Zeynəb Xanlarovalar, Anarlar, Qara Qarayevlər, Səttar Bəhlulzadələr yetişmir. Niyə belədir?

**- Belə anladım ki, “Retro”da artıq yalnız yerli filmlər nümayiş olunacaq. Bəs siz özünüz bu verilişdə hansı xarici və Azərbaycan filmlərini təqdim etmək istərdiniz?**

- Bəli, hələlik Azərbaycan filmləri nümayiş olunur. Amma ola bilsin ki, gələcək planlarda xarici filmlər də yer alsın. Mən istərdim ki, bütün Azərbaycan filmlərini təqdim edim, onlar haqqında danışım. Azərbaycan filmlərindən birini artıq bir dəfə təqdim etmişəm, amma bu il onun 90 illiyidir və ikinci dəfə də təqdim etmək istəyirəm. Söhbət 1936-cı ildə çəkilmiş “Mavi dənizin sahilində” filmindən gedir. Bu film dünya kinosunun klassik irsinə birmənalı şəkildə daxildir. Britaniyanın ən nüfuzlu jurnallarından biri olan “Sight & Sound” jurnalı onu dünya kinosunun ən görkəmli əsərləri siyahısına daxil edib və dünya kinosunun 10 ən gözəl filmi sırasında göstərib. Həmçinin Səməd Mərdanovun dublyaj olunmamış “Kəndlilər” filmini də təqdim etmək istərdim. Bizdə geniş ictimaiyyət tərəfindən sevilən filmlər ayrıdır, əsl sənət əsəri olan filmlər isə çox zaman tanınmır. Məsələn, “Mavi dənizin sahilində” filmini bütün dünya tanıyır, amma biz özümüz tanımırıq. Səməd Mərdanovun “Kəndlilər” filmi də əsl sənət əsəridir, rus dilində çəkilib, bir neçə novelladan ibarətdir, kinonun incisidir. Amma tanıyan yoxdur. “Almaz” və “Dəcəl dəstə” filmləri də çox gözəl filmlərdir. Onları da təqdim etmək istərdim və onlar Azərbaycan dilinə tərcümə olunacaq".

❑ **Xalidə GƏRAY, “Yeni Müsavat”**




## UNEC alimləri Avropada

**UNEC alimləri elmi fəaliyyətlərini Avropanın aparıcı universitetlərində davam etdiriblər.**

Belə ki, universitetin 6 tədqiqatçısı Belçika, Almaniya, İtaliya və Türkiyənin nüfuzlu ali təhsil müəssisələrində elmi ezamiyyətlərdə olub. Alimlər fərqli sahələr üzrə tədqiqatlar apararaq, yeni əməkdaşlıqların əsasını qoyublar və birgə elmi fəaliyyətlər üzrə razılaşmalar əldə ediblər.

UNEC-in Elm və innovasiya məsələləri üzrə prorektoru professor Rövnəq Rzayev və “Mühəndislik və tətbiqi elmlər” kafedrasının müdiri dosent Tural Nağıyev Belçikanın Gent Universitetində elmi səfər çərçivəsində universitetlərarası əməkdaşlığın genişləndirilməsi istiqamətində mühüm görüşlər keçiriblər.

Səfər zamanı UNEC-də hazırlanmış yeni nəsil nanoölçülü materiallar Gent Universitetinin müasir laboratoriya imkanları əsasında tədqiq olunub və materialların elmi-tətbiqi potensialı qiymətləndirilib.

Görüşlərin nəticəsi olaraq tərəflər arasında uzunmüddətli elmi əməkdaşlıq perspektivləri müəyyən edilib. Əməkdaşlıq çərçivəsində 2026-cı ilədək bir sıra birgə elmi məqalələrin hazırlanması, eləcə də Gent Universiteti alimlərinin UNEC-də keçiriləcək beynəlxalq elmi konfranslarda daha geniş iştirakının təmin edilməsi barədə razılıqlar əldə olunub.

❑ **Musavat.com**

YENİ MÜSAVAT
N 1 (8850) 7 yanvar 2026

# İcbari Tibbi Sığortanın hələ sağaltmadığı yaralar

## Professor deyir ki, İTS zərfinə ürək, qan-damar sistemi əməliyyatları, doğuş və travmalarla bağlı xəstəliklər də daxil edilməlidir

**Yanvarın 1-dən əməkhaqqı 8 min manatadək olan neft-qaz sahəsində fəaliyyəti olmayan və qeyri-dövlət sektoruna aid edilən sığortaedənlərdə işləyən şəxslər üzrə icbari tibbi sığorta üzrə sığorta haqlarının yeni dərəcəsi müəyyənləşib. Bu, "Tibbi sığorta haqqında" Qanuna dəyişiklikdə əksini tapıb. Muzdla işləyən fiziki şəxslər, hərbi qulluqçular (müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları istisna olmaqla), Azərbaycan Respublikasının Milli Məclisi və ya müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən vəzifəyə təyin olunan şəxslər, seçkili ödənişli vəzifə tutan şəxslər üzrə sığortalı tərəfindən işçinin əməkhaqqının 8000 manatadək olan hissəsindən 2 faiz, 8000 manatdan yuxarı olan hissəsindən 0,5 faiz, sığortaolunan tərəfindən əməkhaqqının 8000 manatadək olan hissəsindən 2 faiz, 8000 manatdan yuxarı olan hissəsindən 0,5 faiz icbari tibbi sığorta üzrə sığorta haqları tutulurdu.**



Dəyişikliyə əsasən, neft-qaz sahəsində fəaliyyəti olmayan və qeyri-dövlət sektoruna aid edilən sığortaedənlərdə işləyən şəxslər üzrə sığortalı tərəfindən işçinin əməkhaqqının 2500 manatadək olan hissəsindən 2 faiz, 2500 manatdan yuxarı olan hissəsindən 0,5 faiz, sığortaolunan tərəfindən əməkhaqqının 2500 manatadək olan hissəsindən 2 faiz, 2500 manatdan yuxarı olan hissəsindən 0,5 faiz icbari tibbi sığorta üzrə sığorta haqları müəyyən edilib.

Qeyd etmək yerinə düşər ki, İTS-nin imkanları genişləndikcə, vətəndaşların onun imkanlarından daha çox yararlanmaq istəyi də çoxalır. Son bir il ərzində Azərbaycanda İTS sistemi üzrə xidmətlər zərfi mərhələli şəkildə genişləndirilib. 2025-ci ildə həm yeni xəstəliklərin və tibbi xidmətlərin paketə daxil edilməsi, həm də dərman təminatı istiqamətində mühüm yeniliklər həyata keçirilib. Ürək-damar xəstəlikləri, psixi pozuntular, serebral iflic, koxlear implantasiya kimi sahələr üzrə xidmətlərin əhatə dairəsi artırılıb, eyni zamanda ambulator dərmanların sığorta hesabına qarşılanması üçün əlavə maliyyə vəsaiti ayrılıb. Bu dəyişikliklər İTS sisteminin əhali üçün əlçatanlığını və effektivliyini artırmaq məqsədi daşıyır.

Qeyd etmək lazımdır ki, İTS fondunun 2025-ci il büdcəsinə də dəyişiklik edildi. Dəyişikliyə əsasən, "Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi" publik hüquqi şəxsin tabeliyindəki tibb müəssisələri üzrə icbari tibbi sığorta ödənişləri və dotasiya məbləği üzrə xərclər 1 720 956 292,00 manatdan 1 642 956 292,00 manata endirilib. Tibb müəssisələrində kadr potensialının gücləndirilməsi ilə bağlı xərclər 6 000 000,00 manatdan 3 000 000,00 manata, işğaldan azad olunmuş ərazilərdə mobil hospitalların sığortalanma xərcləri 2 500 000,00 manatdan 1 000 000,00 manata endirilib. "Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi" publik hüquqi şəxsin tabeliyindəki tibb müəssisələrinin dərman, sarğı ləvazimatlarının və materiallarının, maddi-texniki bazasının, kadr təminatının və digər xərclərin maliyyələşdirilməsi üçün ayrılan vəsait 464 765 000,00 manatdan 497 765 000,00 manata qaldırılıb. Dərman, sarğı ləvazimatlarının və materiallarının alınması üzrə xərclər isə 200 000 000,00 manatdan 190 000 000,00 manata, tibb müəssisələri üçün ərzaq məhsullarının alınması və təminatı üzrə xərclər 25 000 000,00 manatdan 21 300 000,00 manata endirilib. Tibb müəssisələri üçün zəruri tibbi avadanlıq və inventarın alınması üzrə xərclər 28 000 000,00 manatdan 63 500 000,00 manata, xidməti və xüsusi təyinatlı nəqliyyat vasitələrinin alınması üzrə xərclər 10 000 000,00 manatdan 21 200 000,00 manata qaldırılıb.

"Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi" publik hüquqi şəxsin tabeliyində olmayan tibb müəssisələrinə tibbi xidmətlərə görə sığorta ödənişləri isə 430 000 000,00 manatdan 495 000 000,00 manata yüksəlib. Aptek təşkilatlarına ambulator şəraitdə istifadə olunan dərman vasitələrinə görə sığorta ödənişi 40 000 000,00 manatdan 20 000 000,00 manata enib.

**Cərrah-həkim, professor Adil Qeybulla mövzu ilə bağlı "Yeni Müsavat"a fikrini bölüşüb:** "İTS getdikcə təkmilləşmə istiqamətində olsa da, 2025-ci ildə tibbi sığorta ayrılmaları çox aşağı düşüb. Əlbəttə, bu, müəyyən sahələrdə tibbi sığortanın az olmasına, yaxud da vətəndaşla dövlət arasında bölünməsinə, bəzi hallarda isə həmin sahənin tibbi sığorta xidmətindən çıxarılmasına səbəb olacaq. Məsələ bundan ibarətdir ki, tibbi sığorta dövlətin büdcəsinə, iqtisadi vəziyyətinə bağlı bir xidmət növüdür. Amma istənilən vəziyyətdə tibbi sığortadan faydalanan insanlar var. Hesab edirəm ki, doğuş və təxirəsalınmaz yardım həmişə icbari tibbi sığortaya daxil edilməlidir. Xüsusilə ürək, qan-damar sistemi ilə bağlı istər əməliyyatlar, istər ilkin yardımlar, doğuşla, travmalarla bağlı, kəskin cərrahi xəstəliklər bmütləq İTS zərfinə daxil edilməlidir. Çünki istənilən şəxsin istənilən yerdə bu xidmətlərə ehtiyacı yarana bilər. Qalan planlı xidmətlərlə bağlı müəyyən reduksiyalar ola bilər, vətəndaşla müəyyən bölünmələr ola bilər. İstənilən vəsaitlə tibbi sığortanı effektiv qurmaq olar".

**❑ Afaq MİRAYİQ, "Yeni Müsavat"**

# ABŞ-dəki işini buraxıb Xankəndinə köçdü

## Qarabağ Universiteti Klinikasının baş direktoru Samir Babayevin həyat hekayəti...

**Bakupost.az-ın YouTube kanalında yayımlanan "Saturasiya" verilişinin növbəti qonağı Qarabağ Universiteti Klinikasının baş direktoru Samir Babayev olub.**




Uzman doktor Turanə Rəsulovanın təqdimatında yayımlanan verilişdə Qarabağ Universitetində formalaşdırılan yeni və innovativ tibb təhsili modeli, tibb fakültəsində tətbiq olunan müasir, inteqrativ və klinikaya yönəlik tədris yanaşması, eləcə də Azərbaycan səhiyyəsinin yaxın 5 illik inkişaf vizyonu geniş müzakirə olunub.

Samir Babayev müsahibə zamanı şəxsiyyət və mütəxəssis kimi formalaşmasında mühüm rolu olan insanlar və müəllimləri haqqında danışıb. O bildirib ki, qazandığı bütün bilik və idarəçilik bacarıqları uzun illər Türkiyədə, bir müddət isə Avropa və ABŞ-nin nüfuzlu universitet və klinikalarında çalışdığı dövrdə formalaşıb.

Müsahibədə xüsusilə diqqət çəkən məqamlardan biri Samir Babayevin ABŞ-də karyerasının ən yüksək mərhələsinə çatdığı bir vaxtda rahat və təminatlı həyatdan imtina edərək, ailəsi ilə birlikdə Xankəndinə qayıtmaq qərarı olub. O, bu addımı, sadəcə, milli kimlik məsələsi, ölkəyə və gələcək nəsillərə xidmət missiyası kimi dəyərləndirib.

Verilişdə Samir Babayev Xankəndidə ona etibar edilən işi necə təşkil etdiyini, bir universitet klinikasının sıfırdan qurulması zamanı hansı prinsiplərə əsaslandığını ətraflı izah edib. Onun sözlərinə görə, əsas məqsəd formal struktur deyil, davamlı, şəffaf və beynəlxalq standartlara uyğun bir sistem qurmaqdır.

Qarabağ Universiteti Tibb fakültəsinin uzunmüddətli perspektivi, onun gələcəkdə təkcə regionun deyil, bütün Azərbaycanın aparıcı tibb təhsil mərkəzlərindən birinə çevrilməsi hədəfi xüsusi vurğulanıb.

Müsahibədə tələbələr üçün yaradılan ən yüksək səviyyəli akademik və klinik şərait barədə də geniş məlumat verilib. Müasir laboratoriyalar, texnoloji baza, erkən mərhələdən klinik təhsilin inteqrasiyası, mentorluq institutu, hibrid öyrənmə modelləri və beynəlxalq tədris standartları Qarabağ Universiteti Tibb fakültəsinin əsas sütunları kimi təqdim olunub.

Samir Babayevin sözlərinə görə, məqsəd, sadəcə, diplom verən bir fakültə yaratmaq deyil, düşünən, analitik yanaşan, etik dəyərlərə sahib və qlobal səhiyyə proseslərini anlayan həkimlər yetişdirməkdir.

Verilişdə ən diqqətçəkən məqamlardan biri də Samir Babayevin Azərbaycan səhiyyəsinin əsas problemləri ilə bağlı açıq və prinsipial fikirləri olub. O, kadr hazırlığı, təhsil və praktika arasında boşluqlar, sistemli yanaşmanın vacibliyi və uzunmüddətli strateji planlaşdırmanın əhəmiyyəti barədə ciddi mesajlar verib.

Qeyd edək ki, Samir Babayev Azərbaycan Tibb Universitetini bitirdikdən sonra təhsilini Türkiyədə davam etdirib, daha sonra ABŞ-də rezidentura və ixtisaslaşma mərhələlərini uğurla başa vurub. Uzun illər Amerika səhiyyə sistemində çalışan Babayev müxtəlif klinik və akademik strukturlarda rəhbər vəzifələrdə fəaliyyət göstərib, müasir tibbin tədrisi, klinik idarəetmə, mentorluq və rezident hazırlığı sahəsində praktiki biliklər əldə edib.

Uzun illər "New York Medical College", "University of Texas Southwestern Medical Center" və "Mayo Klinik" kimi dünya səviyyəli müəssisələrdə rəhbər vəzifələrdə işləyib. Müxtəlif tibbi assosiasiyaların üzvü və rəhbəri olub, çoxsaylı elmi məqalələrin və tədqiqatların müəllifidir. Reproduktiv tibdə protokolların inkişafı və minimal invaziv cərrahiyyə sahəsində də fəaliyyət göstərib.

**❑ "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 1 (8850) 7 yanvar 2026

# Futbol əyalətlərə qayıtdı - bəs cənub zonası?

## Bir milyona yaxın əhalinin yaşadığı bölgənin Premyer Liqada təmsilçisinin olmamasının səbəbləri - deputatın və futbol mütəxəssisinin rəyi...

**2025-ci il futbol üzrə Azərbaycan çempionatı üçün yaddaqalan illərdən biri oldu. Belə ki, uzun illərdir hər kəs tərəfindən ciddi problem kimi önə çəkilən bölgə futbolunun olmaması məsələsi çözülməyə başladı. Bir sıra şəhərlərin klubları ölkə çempionatında görünməkdədir.**



Əgər əvvəllər çempionatda iştirak edən 8 və ya 10 klubun tam əksəriyyəti Bakını təmsil edirdisə, indi bu belə deyil.

Artıq Tovuzu "Turan-Tovuz", İmişlini "İmişli", Yevlağı "Karvan Yevlax", Şamaxını "Şamaxı", Qəbələni "Qəbələ", Gəncəni "Kəpəz", Sumqayıtı "Sumqayıt" kimi klublar təmsil edir. Bakının qəsəbələrindən Ziræni "Zirə", Masazırı isə "Sabah" komandaları ölkə çempionatında adlarından söz etdirməyə çalışırlar. Hətta son iki ildə Naxçıvan Muxtar Respublikasının təmsilçisini - "Araz Naxçıvan"ı da çempionatımızda görürük. Hamıya bəllidir ki, "Qarabağ" Ağdam təmsilçisi kimi tanınır. İndiyə qədər keçirilən Azərbaycan çempionatlarının hamısında iştirak edən "Neftçi" isə paytaxt Bakı təmsilçisidir.

Göründüyü kimi, futbolumuz artıq əyalətlərə qayıdıb. Amma burada təəssüf doğuran məqamlardan biri cənub bölgəmizlə bağlıdır. "Lənkəran" FK Lənkəran şəhərini təmsil edir və AFFA-dan verilən məlumata görə, hazırda Regional Liqada çıxış edir. Ancaq peşəkar futbol klubu sayılmır. Əvvəllər "Xəzər Lənkəran" adlı futbol klubu mövcud idi və bu komanda Azərbaycan futbolunun ən populyar klublarından biri hesab olunurdu. 2014-cü ildə Azərbaycan Kubokunu qazansa da, 2016-cı ildə maliyyə problemlərinə görə fəaliyyətini dayandırdı. O vaxtdan bəri Lənkəranı təmsil edən peşəkar futbol klubu yoxdur.

**Deputat, Azərbaycanda futbol bilicilərindən olan Aqil Abbas** "Yeni Müsavat"a dedi ki, əvvəlki illərlə müqayisədə **milli çempionat çox güclənib:** "Birinci Liqaya və əsas liqaya baxanda bunu çox yaxşı görürük. Amma burada təəssüf doğuran odur ki, əsas liqanın klublarının əksəriyyətinə xarici məşqçilər başçılıq edir. Tərlan Əhmədov, Elmar Baxşıyev məşqçi deyil? Amma dediyim kimi, çempionatımız getdikcə güclənir. Burada bir məqamı da xüsusi vurğulayım. Çempionatda iştirak edən klublardan cənub bölgəmizi təmsil edən yoxdur. Düşünürəm ki, bu çox ciddi problemdir və bu problem mütləq aradan qaldırılmalıdır. Cənub zonası futbol ənənəsi olan bölgədir. Həmin ənənəni qısa zamanda geri qaytarmaq lazımdır. "Xəzər-Lənkəran" kimi klubu unutmaq olmaz. Kifayət qədər böyük uğurlar qazanıb, xaricdə ölkəmizi təmsil edib. Bir sözlə, Lənkəranı təmsil edən klub çempionatımızda mütləq olmalıdır. Səhv etmirəmsə, "Xan-Lənkəran" klubu var. Həmin klubun əsas liqaya gəlişi təmin olunmalıdır və Lənkəran futbolsuz qalmamalıdır. Əgər yenə həvalə etsə, nəticə olmayacaq".

**Tanınmış idman yazarı Natiq Muxtarlı bu istiqamətdə çox maraqlı məqamlara toxundu:** "Azərbaycanda futbolun inkişafı həm də onun kütləviliyindən asılıdır. Kütləvilik isə kor-koranə yox, elmi yanaşma tələb edir.

Təəssüf ki, Azərbaycanda "bölgələrdə futbolun inkişafı" adı altında süni komandalar yaradılır. O komandalar üçün milyonlar xərclənir, amma heç bir effekt olmur. Niyə? Çünki elmi yanaşma yoxdur. Azərbaycanın o bölgələrində futbol klubları olmalıdır ki, orada futbolun ənənəsi olub, oradan futbolçular yetişib.

Futbol ölkənin bütün bölgələrini əhatə etməlidir. Amma AFFA başqa yol tutub. Məsələn, Qəbələdə futbol klubu ola-ola, qonşu rayon Şamaxıya da süni bir komanda göndərirlər. Oyunlar zamanı stadionlar demək olar ki, bomboş qalır. Çünki yerli əhalinin futbola marağı yoxdur. Ola bilsin ki, həmin rayonlarda başqa idman növlərindən yaxşı idmançılar çıxsın, amma futbolçu çətin. O cümlədən "İmişli"ni yaradıblar və gedib Qubada oynayır. Heç İmişlidə də futbola maraq olmayacaq. Mərkəzi Aran bölgəsində futbol ənənəsi Sabirabadda və Şirvan şəhərində var. Komandalar orada yaradılmalıdır".

**Müsahibimiz cənub zonasının futboldan kənar qalması məsələsinə də toxundu:** "Bu bölgə istedadlı futbolçular baxımından unikaldır. Lənkəran və Masallıdan çıxan futbolçular o qədər çox olub ki, nəinki yerli komandalarda, ölkənin digər klublarında da oynayıblar. Bir vaxtlar "Vileş" ancaq yerli futbolçulardan təşkil olunmuşdu və çempionatda uğurla çıxış edirdi. O cümlədən Lənkəran da istedadlar məkanıdır. Bu bölgədə 1 milyona yaxın insan yaşayır. Amma orada - köklü futbol ənənəsi olan rayonlarda klubların yaradılması AFFA-nı düşündürmür. Deməli, qurumun məqsədi futbolun inkişafı deyil. Əgər AFFA futbolu inkişaf etdirməyi düşünürsə, Lənkəran və Masallıda infrastruktur qurulmalı, hər iki rayonda peşəkar komanda olmalıdır. Bu bölgədə futbol akademiyasının olması da vacibdir. Oradan o qədər istedadlar çıxacaq ki... Azərbaycan futbolunda "cənub derbisi", "şimal derbisi" olmalıdır. Qubada və Qusarda da peşəkar komandalar yaradılmalıdır. "İmişli" gedib Qubada oynayırsa, elə qoy Qubanın öz təmsilçisi olsun çempionatda. "Aran derbisi" olmalıdır. Sizi inandırıram ki, Sabirabad və Şirvan klublarının oyununa "Neftçi" - "Qarabağ" oyunundan daha böyük maraq olacaq, daha çox azarkeş gələcək. Futbolun inkişafına elmi yanaşma olmasa, futbol ənənəsi olan bölgələrə yayılmasa, Azərbaycanda bu idman növünü inkişaf etdirmək mümkün olmayacaq. AFFA hələ ki imitasiya ilə məşğuldur, süni komandalar yaradıb futbol ənənəsi olmayan rayonlara göndərir. Guya futbolu bölgələrə yayırlar. Amma qərarları səhvdir, xərclənən pulun, yatırılan investisiyanın heç bir effekti olmayacaq.

Futbol öncə bu idman növü sevilən rayonlarda olmalıdır. Azərbaycanda futbol ənənəsi olan 16 şəhər və rayon var. O şəhər və rayonların hamısında peşəkar komanda, futbol akademiyaları olmalıdır. Azərbaycan çempionatında da 16 komanda çıxış etməlidir. Ondan sonra ölkədə məhsul - futbolçu bumu yaşanacaq".

**Cavanşir ABBASLI, "Yeni Müsavat"**




# "İmarət" stadionu nə vaxt hazır olacaq?

**Gənclər və İdman Nazirliyinin Ağdam şəhərində "İmarət" stadionunun tikinti işlərinin birinci mərhələsi ilə bağlı elan etdiyi tenderin qalibi müəyyənləşib.**

Apasport.az xəbər verir ki, dövlət tərəfindən Ağdam şəhərində inşa olunacaq "İmarət" stadionunun tikintisi üçün ilkin mərhələdə 30,4 milyon avro (60,5 milyon manat) vəsait ayrılıb.

Layihə çərçivəsində müasir standartlara cavab verən stadion kompleksinin inşa olunması nəzərdə tutulur. Məlumata görə, tikinti işlərinin 2028-ci ilin sonuna qədər tamamlanması planlaşdırılır.

Yeni stadion istifadəyə verildikdən sonra "Qarabağ" klubu uzun illərdən sonra ev oyunlarını doğma şəhəri Ağdamda keçirmək imkanı əldə edəcək.

Başqa bir məlumata görə, tenderin qalibi "PMD Project" MMC olub.

Şirkət indiyə qədər "Zəfər" parkı, "Şuşa" məscidi, Ağdamda "İmarət" kompleksi və digər layihələri icra edib.

Tikinti işlərinin 2026-cı ildə başlanacağı gözlənilir.

Xatırladaq ki, "İmarət" stadionunun təməli 2024-cü ilin sentyabrında qoyulub. Arenanın UEFA-nın 4-cü kateqoriya tələblərinə uyğun inşa edilməsi nəzərdə tutulub. 11 min 700 nəfərlik tamaşaçı tutumuna malik stadionun oyun meydançası təbii ot örtüyünə malik olacaq.



# "Qarabağ" Koxalski üçün 7 milyon avro istəyir

**"Qarabağ"ın qapıçısı Mateuş Koxalski (Mateusz Kochalski) hazırda "Borussiya Dortmund"a transfer olunmağı planlaşdırmır.**

QOL.az xəbər verir ki,Polşa mətbuatının yaydığı məlumata görə, Ağdam klubu artıq qolkiperin transfer qiymətini müəyyənləşdirib.

Məbləğ 7 milyon avro təşkil edir. Qeyd edilir ki, "Borussiya" maliyyə baxımından bu məbləği ödəməyə qadir olsa da, transfer mövzusu hazırda nə klub, nə də futbolçunun özü üçün prioritet sayılır.

Bildirilir ki, Koxalski Azərbaycanda özünü rahat hiss edir və ən azı 2025/26 mövsümünün sonuna qədər "Qarabağ"da qalmaq niyyətindədir. O, komandanın əsas heyətində möhkəm yer tutub, mütəmadi olaraq Çempionlar Liqasında çıxış edir və klub real olaraq pley-off mərhələsinə yüksəlmək uğrunda mübarizə aparır.

"Borussiya Dortmund"da isə əsas qapıçı mövqeyi İsveçrə millisinin üzvü Qreqor Kobelə məxsusdur. Kobelin xüsusilə dünya çempionatına hazırlıq mərhələsində, yerini kiməsə vermək niyyətində olmadığı vurğulanır.

Qeyd olunur ki, Koxalski karyerasına çox düşünülmüş yanaşır və yalnız TOP-5 liqalardan gələn təkliflərə görə təlasik qərarlar qəbul etmir.

YENİ MÜSAVAT
N 1 (8850) 7 yanvar 2026

**Qış turizmi son illərdə dünya üzrə genişlənib və xüsusilə yaxın ölkələrdə sürətlə inkişaf edib. Xizək mərkəzləri, qarla örtülmüş dağlar, termal su qaynaqları və təbiətə yaxınlıq qış turizmini cazibədar bir seçimə çevirir. Dünyada bu sahənin ən inkişaf etmiş məkanları arasında Avropa və Şimali Amerika ölkələri ön plana çıxır. Məsələn, Alplar, İsveçrə, Avstriya, İtaliya və Fransa kimi ölkələr dağ xizəyi və digər qış idmanları ilə məşhur olan kurortları ilə turistləri cəlb edir. Kanadadakı Banff kimi məkanlar da qış turizmi sahəsində önəmli yerlərdədir.**

# Qış turizminin "əriyən" problemləri

## Dövlətin və özəl sektorun qış turizminə investisiyalar yatırması Azərbaycanın bu sahədə dünya miqyasında tanınan turizm məkanı olmasına imkan yarada bilər



Bundan başqa, qonşu ölkələrdə də qış turizmi sürətlə inkişaf edir. Gürcüstan xüsusilə xizək mərkəzləri ilə populyarlaşır. Rusiya və İran da qış turizmi sahəsində irəliləyişlər əldə edib. Soçi və Dizin kimi mərkəzlər, dağ xizəkçiləri və təbiət həvəskarları üçün ideal məkanlar təklif edir.

Türkiyədə isə qış turizmi əsasən dağ xizək mərkəzləri ilə tanınır. Uludağ, Palandöken, Kartalkaya və Erciyes kimi məkanlar yerli və xarici turistlər üçün cazibədar yerlər halına gəlib. Bu mərkəzlər həm təcrübəli xizəkçilər, həm də yeni başlayanlar üçün uyğun şərait təqdim edir. Türkiyə qış turizminə olan marağını artıran müasir infrastruktur layihələri ilə diqqət çəkir.

Qış turizminin inkişafı yalnız idman fəaliyyətləri ilə məhdudlaşmır. Ekoturizm və qışda təbiətə yaxın olmaq istəyən turistlər üçün qarla örtülmüş meşələrdə gəzinti, buz üzərində yürüş və qar motosikleti sürmək kimi müxtəlif fəaliyyətlər mövcuddur. Bu cür turizm növləri, həmçinin ekoloji cəhətdən dayanıqlı və təbiətə hörmətli turizmin təşviqinə kömək edir. COVİD-19 pandemiyasından sonra açıq hava fəaliyyətlərinə olan maraq artıb və insanlar qapalı məkanlardan uzaq duraraq, təbiətə daha yaxın yerlərə səyahət etməyə başlamışlar. Xizək mərkəzləri və dağ kurortları, bu yeni turizm tələblərinə cavab vermək üçün sosial məsafə qaydalarına riayət edərək daha çox turist cəlb etməyə başlayıb.

Yeni qış turizmi həm dünya miqyasında, həm də qonşu ölkələrdə inkişaf edən və iqtisadi cəhətdən əhəmiyyətli bir sahəyə çevrilib. Bu sahənin gələcəyi, daha çox insanın təbiətə yaxın olmaq, qış idmanları ilə məşğul olmaq və sağlam həyat tərzini təşviq etmək istəyindən asılı olaraq daha da parlaq olacaq. Bəs Azərbaycanda vəziyyət necədir?

Azərbaycanda qış turizmi hələ tam mənada inkişaf etməsə də, ölkənin dağlıq bölgələrindəki təbii zənginliklər və qış idmanlarına olan maraq bu sahənin gələcəyini ümidverici edir. Dövlətin və özəl sektorun qış turizmi ilə bağlı investisiyalar yatırması Azərbaycanın bu sahədə dünya miqyasında tanınan turizm məkanı olmasına imkan yarada bilər. Turizmin inkişafında ən böyük əngəl quru sərhədlərin hələ də bağlı olmasıdır...

**Turizm üzrə ekspert Ceyhun Aşurov mövzu ilə bağlı "Yeni Müsavat"a fikrini bölüşüb. Ekspert deyib ki, Türkiyə ilə Azərbaycanı turizm sahəsində müqayisə etmək mümkün deyil**: "Azərbaycanda 2-3 qış turizmi təsisatı var, Tufandağ, Şahdağ və Ağbulaq maksimum olaraq qış turizmi üzrə fəaliyyət göstərən əsas məkanlardır. Həmin yerlərdə qış turizmi ilə bağlı müxtəlif fəaliyyətlər təşkil olunur. Ümumilikdə isə qış fəslində insanlar əsasən qar görmək üçün təbiətə üz tutur, səyahətlər edirlər, planlaşdırırlar. Azərbaycanda qış elə də sərt keçmir. Buna baxmayaraq, bir neçə gün əvvəl yağan qar nəticəsində bəzi yollarda müəyyən çətinliklərin yarandığının şahidi olduq.

Amma ümumən qış fəslinin və qış turizminin daha dolğun yaşanması üçün xaricdən də turistlərin cəlb olunmasına böyük ehtiyac var. Çünki ölkə daxilindəki insanlar turist kimi əsasən həftə sonları və bayram günlərində aktiv ola bilirlər. Qalan günlərdə isə əksər insanlar işdə olduqları üçün bu cür turizm məkanlarını ziyarət etmək imkanları məhdudlaşır. Həmin günlərdə regionlarda ümumilikdə istər turizm obyektlərinin, istərsə də hotellərin doluluğu əsasən həftə sonları və bayram günlərinə təsadüf edir. Bu istiqamətdə, əlbəttə ki, kifayət qədər işlər görülməlidir. Amma əsas məqsəd daha çox xarici turistlərin cəlb olunması olmalıdır ki, ilboyu, bütün fəsillərdə, o cümlədən qış mövsümündə də bu regionlara səfərlər davamlı xarakter alsın".

**İqtisadçı Natiq Cəfərli sosial şəbəkədəki paylaşımında turizmlə bağlı fikirlərini bölüşüb:** "Prezident İlham Əliyev dünənki müsahibəsində qeyd etdi ki, 2019-cu ildə Azərbaycanda turizmlə bağlı ciddi artım olmuşdu - doğrudur, son illərin ən böyük turizm rəqəmləri, həm sayla, həm də gəlirlə bağlı məhz quru sərhədlərin açıq olduğu 2019-cu ildə qeydə alınmışdı".

Partiya sədri qeyd edib ki, Prezident çıxışında turizm potensialından, hava limanlarının ötürücülük qabiliyyətinin artırılmasından, ölkəyə daha çox "low-cost" şirkətlərinin cəlb ediləcəyindən də danışdı - bütün bunlar doğru istiqamətlərdir, doğrudan da turizmin böyük potensialı, iqtisadiyyatda multiplikativ effekti var, öz arxasınca 10-11 sahəni də inkişaf etdirir: "Amma quru sərhədlər mütləq açılmalıdır, tək hava nəqliyyatı ilə turizmi inkişaf etdirmək mümkün deyil".

**İqtisadçının sözlərinə görə, Azərbaycan öz coğrafi mövqeyini turizmdə də istifadə etməli, qatarla, avtomobillə, avtobuslarla regional turların təşkilində mərkəzə çevrilməlidir:** "İstənilən Mərkəzi Asiya ölkəsinin vətəndaşı Bakıda qatara minib İstanbula, daha sonra isə Avropaya qatar turu ilə gedə bilsə, bu, ölkə turizmində böyük inkişafa, regional turların Bakı mərkəzli satışının artmasına səbəb olacaq. Bir sözlə, turizmin inkişafı quru sərhədlərin açılmasına bağlıdır".

❑ **Afaq MİRAYİQ,**
**"Yeni Müsavat"**



# Türkiyədə qadağan edildi, bəs Azərbaycanda?

**Bir çox ölkələrdə artıq 15 yaşadək olan vətəndaşların sosial şəbəkədən istifadəsi qadağandır. Eyni zamanda Türkiyədə 15 yaşadək olan vətəndaşların sosial şəbəkələrə və oyun platformalarına girişi qadağan ediləcək. Məlumata görə, sosial şəbəkə istifadəçilərindən şəxsiyyət vəsiqəsinin nömrəsinin daxil edilməsi və bunun ardınca təsdiqləmə tələb olunacaq.**

Azərbaycanda da bu tip qadağalar tətbiq edilməlidirmi? Uşaqların rəqəmsal məkanlarda təhlükəsizliyini təmin etmək üçün hansı metodlar daha effektiv ola bilər?

Moderator.az-a danışan **Azərbaycan İnformasiya və Kommunikasiya Texnologiyaları Sənayesi Assosiasiyasının İdarə Heyətinin sədri Elvin Abbasov** deyib ki, dünya təcrübəsi göstərir ki, uşaqların rəqəmsal təhlükəsizliyi artıq fərdi məsuliyyət çərçivəsindən çıxaraq dövlət və texnologiya nəhəngləri tərəfindən idarə olunan kompleks bir sistemə çevrilib: "Bu prosesdə Google Family Link, Microsoft Family Safety və Apple Screen Time kimi peşəkar həllər, sadəcə, bir qadağa aləti deyil, uşağın yaşına uyğun süzgəcdən keçmiş rəqəmsal mühit formalaşdıran intellektual bələdçilərdir. Bu platformalar vasitəsilə valideynlər uşağın oyun və tətbiq limitlərini tənzimləyə, YouTube Kids kimi xüsusi ekosistemlərlə zərərli məzmunları avtomatik filtr edə və onların onlayn fəaliyyətini tam şəffaf şəkildə idarə edə bilərlər. Azərbaycanda da bu tip qlobal həllərin təşviqi, identifikasiya sistemləri ilə birlikdə tətbiq olunduqda, uşaqları kiber-təqib və asılılıq yaradan alqoritmlərdən qorumaq üçün ən dayanıqlı texnoloji qalxan rolunu oynayır. Lakin ən mükəmməl proqram təminatı belə rəqəmsal şüurla dəstəklənmədikdə yarımçıq qalır; bu səbəbdən texniki məhdudiyyətlərlə yanaşı, "Məktəblərdə Rəqəmsal Gigiyena" tədrisinin kurikulumlara daxil edilməsi həlledici addımdır. Uşaqlara erkən yaşdan etibarən parolların qorunması, kiber-bullinqə qarşı davranış və internetdə şəxsi məlumatların toxunulmazlığı aşılanmalı, texnologiya onlara bir "təhlükə" deyil, etik qaydaları olan bir alət kimi tanıdılmalıdır. Bu yanaşma valideynləri ailə qoruma proqramlarından istifadəyə təşviq etməklə yanaşı, uşaqlarda daxili bir filtr formalaşdırır ki, bu da onları rəqəmsal dünyada hər hansı kənar nəzarət olmadan belə təhlükəsiz saxlayır. Beləliklə, inzibati qadağalar, qlobal texnoloji həllər və rəqəmsal savadlılıq vəhdət təşkil etdikdə uşaqlar üçün keçilməz bir təhlükəsizlik şəbəkəsi qurulmuş olur.

YENİ MÜSAVAT
N 1 (8850) 7 yanvar 2026

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Gənc nəslin milli mənlik şüurunun inkişaf etdirilməsi və vətənpərvərlik hisslərinin tərbiyəsi**

# "Dilin qorunması ictimaiyyətin vəzifəsidir"

## Azərbaycan dili: milli varlığın və dövlətçiliyin təhlükəsizliyini necə qorumaq olar?

**"Dil insanları birləşdirir, əhalini birləşdirir. Dil dövlətçiliyin əsas atributlarından biridir, bəlkə də birincisidir, təbii ki, bayraqla, gerblə, himnlə birlikdə. Xalqımızın taleyini hamımız yaxşı bilirik, ağır taledir".**

Bu fikirləri Prezident İlham Əliyev yerli televiziya kanallarına müsahibəsində deyib. Prezident vurğulayıb ki, dünyada 50 milyondan çox azərbaycanlı yaşayır: "Çox dil bilmək yaxşıdır, mən də onun tərəfdarıyam. Amma sən xarici dillərdə lazım olan vaxtda danış, biz öz dilimizi qorumalıyıq. Xarici kəlmələr dilimizi pozur, zənginləşdirmir və milli kimliyimizi də sarsıdır, damcı-damcı, yavaş-yavaş. Bəlkə də özümüz heç buna fikir vermirik, damcı-damcı sarsıdır. Dil əldən gedəndən sonra, yaxud da ki, pozulandan sonra, ya da başqa dilə tamamilə uyğunlaşandan sonra onda milli kimlik də gedəcək, ondan sonra dövlətçilik də gedəcək, ondan sonra, Allah eləməsin, ölkəmiz də, necə deyərlər, böyük fəlakətlə üzləşə bilər. Ona görə Azərbaycan dilini qorumaq hər birimizin vəzifəsidir. Bunu mən tam əminliklə deyirəm və hamını bu mübarizəyə dəvət edirəm".

**Prezident onu da diqqətə çatdırıb ki, azərbaycanlıların yaşadıqları bəzi ölkələrdə Azərbaycan məktəbləri yoxdur:** "Bu, böyük ədalətsizlikdir və bu ədalətsizliyə son qoyulmalıdır. Biz imkan daxilində təsir etməyə çalışırıq, amma imkanlarımız da çox geniş deyil. Bunun üçün də mənim göstərişimlə artıq onlayn məktəblər açılır və onların sayı da çoxalmalıdır, əhatə dairəsi çoxalmalıdır. Azərbaycanlıların yaşadıqları bütün yerlərdə onlayn Azərbaycan dili məktəbləri olmalıdır ki, bizim uşaqlarımız öz ana dillərini bilsinlər. Çünki üçüncü-dördüncü nəsil azərbaycanlıların uşaqlarının artıq bəziləri ana dilini bilmirlər. Burada bir çox amillər birləşir. Əsas amillər əvvəl dediyim məsələdir və böyük xalq olduğumuz üçün mən çox istəyirəm ki, bütün azərbaycanlılar Azərbaycan dilində, bax, bizim kimi danışsınlar. Bu, mənim arzumdur".




**Milli Məclisin deputatı Hikmət Babaoğlu** "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, Azərbaycan Prezidenti növbəti dəfə Azərbaycan dilinin qorunmasından danışaraq dili milli varlığın əsas vasitəsi kimi göstərib. Deputat vurğuladı ki, ölkə başçısı dilimiz, onun üslubu, işlənməsi ilə bağlı mövcud reallığı ictimaiyyətin diqqətinə çatdırdı, hər kəsi problemlərin həlli üçün səfərbər olmağa çağırdı: "Dil kütləvi hadisə olduğu üçün bu, sadəcə, akademik səviyyədə həll olunacaq məsələ deyil, dilin qorunması xalqın, ictimaiyyətin vəzifəsidir. Genetik olaraq dil daşıyıcısının vəzifəsi və borcudur. Təəssüf ki, hazırda Azərbaycan dili üzərində böyük təzyiqlər var. Təzyiqləri qruplaşdırmağa çalışsaq, görəcəyik ki, bunların bir hissəsini müasir texnologiyalar, sosial şəbəkələr, qlobal informasiya məkanı yaradır. Dil "simvollaşdırılır", "işarələşdirilir", leksik ehtiyatlar məhdudlaşdırılır. Bu isə dil daşıyıcılarının gündəlik danışığında özünü büruzə verir. Leksik yaddaş kiçildikcə dil fondu zədələnir. İkinci məsələ film fondunun inkişafı və informasiya məkanına daxil olması ilə bağlıdır. İnternet resurslarında istənilən filmin müxtəlif proqramlar vasitəsilə izlənməsi yeni nəslin dil yaddaşını zədələyir. Müxtəlif dillərin təqdimatı dil yaddaşı tərəfindən mənimsənilir. Nəticə etibarilə Azərbaycan dilində səlis danışmaq, dilin leksik fondunu mənimsəmək çətinləşir. Diqqətçəkən digər amil elektron media təqdimatlarıdır. Müxtəlif verilişlərdə dil təhrif olunur, yaxud düzgün tələffüz olunmur. Beləliklə, dil deformasiyaya məruz qalır. Ədəbi dil normaları qorunmadığı üçün jarqon, ləhcə və məişət dili normaya çevrilir. Bu baxımdan televiziyaların üzərinə çox böyük məsuliyyət düşür. Bəzən aparıcılar sözləri düzgün tələffüz edə bilmirlər. Zamanla bu, bir növ dəbə çevrilir. Mənə elə gəlir ki, ictimai, humanitar institutlar daxil olmaqla, cəmiyyətin bütün intellektual təbəqəsi dilimizin keşiyində durmağı bacarmalıdır. Akademik səviyyədə isə dilimizin zənginləşdirilməsi üçün addımlar atılmalıdır. Orfoqrafiya lüğətində sözlərin sayını süni surətdə artırmağa ehtiyac yoxdur. Təəssüf ki, o sözlərin əksəriyyətini ləhcələrdə, dialektlərdə görsək də, lüğətə gətirib ədəbi dilin məhsuluna çevirə bilmirik. Əksinə, xarici dillərdən alınma yad sözlərdən istifadə edirik. Halbuki o sözlər ana dilimizdə mövcuddur. Ya həmin sözləri arxaikləşmiş hesab edirik, ya da məişət sözü kimi qəbul edirik. Nəticədə dilin imkanları məhdudlaşır. Odur ki, bu istiqamətdə mühüm addımlar atılmalı, Azərbaycanın intellektual ordusu Prezidentin fikirlərini bir növ fəaliyyət proqramı kimi qəbul etməlidir".

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyəsi əsasında nəşr olunur. Yazını hazırladı: Nigar HƏSƏNLİ

# Neftin üzünün "qaralması" ili

## Hasilatın azalmasının qiymət ucuzlaşması ilə müşayiət olunması Azərbaycanın gəlir imkanlarının daha çox daralmasına gətirib çıxaracaq

**2026-cı ilin ilk günləri dünyanı sarsıdan hadisələr fonunda neft bazarını qlobal gündəmə daşıdı. ABŞ Prezidenti Donald Trampın Venesueladan Nikolas Maduronu götürərək Nyu-York məhkəməsinə təslim etdirməsi dünya neft bazarı üçün böyük təsirə malik addımlardan biri kimi qiymətləndirilməkdədir. Qlobal neft ehtiyatlarının 17,5 faizinə sahib bir ölkəyə müdaxilədə məqsədini gizlətməyən Tramp Venesuela neftinin ABŞ-ın düşmənlərinə satılmasına imkan verilməyəcəyini açıq şəkildə bəyan edir. Madurodan sonrakı hakimiyyət Vaşinqtonun dediklərini edənə qədər Venesuelanın neft ixracına tətbiq edilən blokada davam etdirilir. Yanvarın 3-dən bəri 20-dən çox tanker ABŞ blokadasını yarıb Venesuela sahillərinə getməyə çalışsa da, buna nail ola bilməyib.**



Beləliklə, gündəlik 400-500 min barel həcmində qiymətləndirilən Venesuela neftinin əsas alıcılara - Çinə və Kubaya çatmasının qarşısı alınır. Bu, bazarda qiymətlərin 1-2 dollar artması ilə müşayiət olunur. Analitiklərə görə, ötən il neft tələbatının 4 faizini Venesueladan təmin edən Çin üçün bu ölkədən neft idxalının dayanması problemlər deməkdir. Hazırda tələbin zəif artımı fonunda Çin və Malayziya sahillərində üzən saxlama məntəqələrində təxminən 82 milyon barel sanksiyalı neft saxlanılır. Onun əsas hissəsi Venesuela və İrana məxsusdur.

Onsuz da bu il neft bazarı üçün müsbət proseslər vəd olunmurdu. Ötən ilin ortalarından başlayaraq neft bazarında təklif artıqlığı sürətlə çoxalıb, OPEK+ ölkələri hasilatı gündəlik 3 milyon barelə yaxın artırıblar. Digər tərəfdən, Ukraynanın dron zərbələri ilə emal zavodları böyük zərərlə üzləşən Rusiya daha çox nefti ixraca yönəltmək məcburiyyətində qalıb. Qlobal iqtisadiyyatda artım tempinin gözləniləndən aşağı olması, tələbin daha ləng artmasını da üzərinə gəldikdə, cari ildə neft bazarının aqibətinin 2025-ci ildən daha pis olacağına dair proqnozlara səbəb olub.

Bütün bunlar neft ixracından böyük ölçüdə asılı olan ölkələr, o cümlədən Azərbaycan üçün ciddi çağırışlar formalaşdırır. Ölkəmiz üçün mümkün problemləri dərinləşdirən daha bir amil neft hasilatının təbii azalmasıdır. Artıq Azərbaycan hökumətinin də proqnozlaşdırdığı kimi, əsas ixrac mənbəyi olan Azəri-Çıraq-Günəşli yataqlar blokunda hasilat sürətlə düşür. 2024-cü ildə Azərbaycanda 29,1 milyon ton neft hasil olunub ki, bu da 2023-cü ilin göstəricisindən 3,6 faiz azdır. 2025-ci ildə Azərbaycanda neft hasilatı 28,5 milyon ton həcmində proqnozlaşdırılıb ki, bu da 2024-cü ilin faktiki göstəricisindən 2,1 faiz azdır. Real rəqəmlər 2025-ci ildə hasilatın daha böyük sürətlə azaldığından xəbər verir: Dövlət Statistika Komitəsinin məlumatına görə, yanvar-dekabrda ölkədə 25,3 milyon ton neft hasil edilib ki, bu da 2024-cü ilin eyni dövrü ilə müqayisədə 4,7 faiz azalma deməkdir. Bu, həm də ondan xəbər verir ki, hasilatın azalma tempinin yavaşıdılması üçün atılan addımlar məqsədə nail olunmasına gətirib çıxarmayıb. AÇG-də yeni istismara verilən ACE platformasından hasilatın artım sürəti ümumi yataqdakı azalmanın az bir hissəsini kompensasiya etməyə imkan verib.

Azərbaycan hökumətinin proqnozlarına görə, 2026-cı ildə Azərbaycanda neft hasilatı 27,6 milyon ton təşkil edəcək, bu isə 2025-ci ilin proqnoz göstəricisindən 3,2 faiz azdır. 2027-ci ildə 27,1 milyon ton (2026-cı illə müqayisədə 1,8 faiz az), 2028-ci ildə isə 26,6 milyon ton (2027-ci illə müqayisədə 1,8 faiz az) olacağı gözlənilir.

Bir neçə gün əvvəl Azərbaycan mətbuatına müsahibə verən Prezident İlham Əliyev də bu məsələyə toxunaraq, neft hasilatının sabitləşdirilməsi üçün addımlar atıldığını vurğulayıb. Hökumətin proqnozlarına əsasən sabitləşmə 2029-cu ildən başlayacaq: həmin il ölkədə neft hasilatı 27,4 milyon tona yüksələcək. Bu isə 2028-ci illə müqayisədə 3 faiz çoxdur. Beləliklə, 2025-2028-ci illərdə hasilatın azalmasından sonra 2029-cu ildə orta səviyyədə bərpa gözlənilir.

Hasilatın azalmasının qiymət ucuzlaşması ilə müşayiət olunması digər ölkələrlə - Rusiya, Qazaxıstan və sair - müqayisədə Azərbaycanın gəlir imkanlarının daha çox daralmasına gətirib çıxaracaq. 2025-ci ildə Azərbaycanın istehsal etdiyi "Azeri Light" (CIF) markalı neftin 1 barelinin orta illik ixrac qiyməti 71.1 ABŞ dollarına bərabər olub (APA). Bu isə əvvəlki illə müqayisədə neftin orta qiymətinin 14 faiz azalması deməkdir: 2024-cü ildə Azərbaycan neftinin orta ixrac qiyməti 82.87 ABŞ dollarına bərabər olub.

Ötən il Azərbaycanın dövlət büdcəsində bir barel neftin orta illik ixrac qiymətinin 70 ABŞ dollarından hesablandığını nəzərə alsaq, yekun qiymətin ölkə üçün problem yaratmayacaq həddə olduğunu deyə bilərik.

Bu il üçün Azərbaycan büdcəsində neftin orta ixrac qiyməti olaraq 65 dollar hesablanıb. İlin ilk günlərində qiymətlər bu həddən aşağı olsa da, Vaşinqtondan ən yüksək səviyyədə Venesuela neftinin ixracına maneənin aradan qaldırılmayacağına dair açıqlamalar yanvarın 6-da qiymətin 65 dolları keçməsinə səbəb olub. Bu qiymətin nə qədər davam edəcəyi ABŞ ilə Venesuela hakimiyyəti arasında anlaşmanın olub-olmamasından asılıdır. Əgər Madurodan sonra ölkəyə rəhbərliyi ələ alan Delsi Rodriqez ABŞ-nin tələblərinə boyun əyəcəksə, Venesuela neftinin dünya bazarında yolu tam açılacaq. Analitiklərə görə, bu, neft bolluğu yaşayan bazarda qiymətlərin 2-3 dollar azalmasına gətirib çıxara bilər. Blokadanın davam etməsi şəraitində isə qiymətlərə təsir edəcək mühüm amillər kimi İrandakı hadisələr, həmçinin qlobal tələbin artım sürəti, Çin iqtisadiyyatındakı proseslər olacaq. Daha bir amil Rusiya neftidir. ABŞ-nin Hindistan və Çinə Rusiya neftinin alınmaması üçün təzyiqlərinin bərpa olunması qiymətlərin ən azı indiki səviyyədə qalmasını təmin edə bilər.

❑ **Dünya SAKİT, "Yeni Müsavat"**

# YENİ MÜSAVAT

Son səhifə

N 1 (8850) 7 yanvar 2026

Yanvar


## Bunları bilirsinizmi?

* Bədəninizin 30 dəqiqədə itirdiyi istiliklə iki litr suyu qaynada bilərsiniz.
* Hər bir ayağınızda təxminən bir trilyon bakteriya var.
* Ortalama bir yuxu 2-3 saniyə davam edər.
* Yeməyin ağzınızdan mədənizə çatması yeddi saniyə davam edir.
* Mədə turşunuz bir ülgücü əridə biləcək gücdədir.
* Bir cüt ayaqda 250 000 tər vəzi var.
* Ayaq baş barmağınızda iki sümük olmasına qarşılıq digər dörd barmağınızda üç sümük var.
* Ortalama bir qadın ortalama bir adamdan 12,5 sm qısadır.



## Teflon örtüklü qazanların satışı qadağan edilir?

**Avropa Birliyi ölkələrində 2026-cı il yanvarın 1-dən rəsmi olaraq teflon tavaların istifadəsi qadağan olunub. Əsas səbəb bu məhsullarda insan sağlamlığı və ətraf mühit üçün risk yaradan, ağır kimyəvi maddələr kimi tanınan perfloroalkil və polifloroalkil maddələrinin (PFAS) yüksək miqdarda olmasıdır. Yeni tənzimləməyə görə, tekstil məmulatları, ayaqqabılar, kosmetik məhsullar, eləcə də xizəklərdə istifadə olunan mum kimi bəzi istehlak məhsullarında PFAS maddələrinin istifadəsinə icazə verilməyəcək.**

Kimya üzrə fəlsəfə doktoru Elmir Babayev bildirdi ki, teflon materiallarının istehsalı ötən əsrin 40-cı illərindən başlayıb və onların yağa, suya, ləkəyə və yüksək temperatura davamlılığı səbəbindən sənayenin müxtəlif sahələrində geniş istifadə olunub: "Bu maddələrin təbiətdə və canlı orqanizmlərdə parçalanmaması onları zərərli kimyəvi maddələr sinfinə aid edir".

Həkim Abbas Bağırov isə qeyd edib ki, teflon örtüklü qabların səthi zədələndikdə onların tərkibində olan PFAS birləşmələri qidaya keçə və zəhərli təsir göstərə bilər. Onun sözlərinə görə, bu maddələr qida, su və təmas yolu ilə insan orqanizminə daxil olur: "PFAS maddələri endokrin sistemin fəaliyyətini pozur, qaraciyər və mədə-bağırsaq sisteminə ciddi zərər verə bilər. Xüsusilə hamilə qadınlar, uşaqlar və gənclər üçün bu risk daha böyükdür".

# Mağazaya girib gitaraları sındıran meymun saxlandı



**ABŞ-nin Nyu-Cersi ştatında hüquq-mühafizə orqanları musiqi mağazasına daxil olaraq gitaraları sındıran və ətrafda xaos yaradan meymunu saxlayıblar. Oxu.Az xəbər verir ki, bu barədə "New York Post" nəşri məlumat yayıb. Mağaza rəhbərliyinin bildirdiyinə görə, Mərkəzi və Cənubi Amerikaya məxsus "darçın rəngli" kaputsin cinsindən olan meymun bazar günü Morristaun şəhərində yerləşən ticarət mərkəzindəki musiqi mağazasına girərək oradakı gitaralara ciddi ziyan vurub.**

Nəşrin məlumatına əsasən, yanvarın 4-də səhər tezdən müşahidə kameraları vasitəsilə hadisəni görən mağaza sahibləri dərhal polisə müraciət ediblər.

Təhlükəsizlik əməkdaşları uzun müddət ərazidə pusqu qurublar. Meymunu yalnız axşam saatlarında tutmaq mümkün olub.

İlkin ehtimallara görə, meymun Alabama ştatında yerləşən fermalardan birindən oğurlanıb və sonradan qaçmağa müvəffəq olub. ABŞ Kənd Təsərrüfatı Nazirliyi heyvanın tapılması və saxlanılması barədə onun sahibini məlumatlandırıb.

# Populyar pəhriz xərçəngə yol aça bilər



**Populyar ketogen pəhriz də daxil olmaqla, yüksək yağlı qidalanma qaraciyər xərçənginin inkişaf riskini artıra bilər. Oxu.Az xəbər verir ki, bu barədə "The Sun" nəşri Massaçusets Texnologiya İnstitutunun (MIT) alimlərinin apardığı araşdırmaya istinadən məlumat yayıb.**

Araşdırmaya görə, yüksək yağlı pəhrizin yaratdığı stres şəraitində qaraciyər hüceyrələri normal funksiyalarını yerinə yetirməyi dayandırır və daha ibtidai vəziyyətə qayıdır. Zaman keçdikcə bu dəyişiklik qaraciyərin funksionallığını zəiflədir və onu şişlərin inkişafına qarşı daha həssas hala gətirir. MIT alimləri siçanlar üzərində apardıqları təcrübələr zamanı uzun müddət yağlı qidalarla qidalanmanın iştirakçıların demək olar ki, hamısında qaraciyər xərçənginin yaranmasına səbəb olduğunu müşahidə ediblər.

Bundan əlavə, oxşar dəyişikliklərin insanın qaraciyər toxumasında da baş verdiyi qeyd olunub. Yağlı pəhriz zamanı qaraciyərin normal fəaliyyətinə cavabdeh olan genlər passivləşir, şişin böyüməsini təşviq edən proseslərlə əlaqəli genlər isə aktivləşir.

## Şizofreniyadan qoruyan beyin hüceyrələri yaradılıb



**İsveçin Lund Universitetinin alimləri əlavə beyin hüceyrələrini şizofreniya və epilepsiya zamanı adətən zəifləmiş tormozlayıcı sistemin əsas elementlərinə çevirməyə nail olublar. Araşdırmanın nəticələri "Science Advances" jurnalında dərc olunub. Söhbət parvalbumin neyronlarından gedir. Bu hüceyrələr beyində həyəcan və tormozlanma balansının qorunmasında mühüm rol oynayır. Onlar neyron şəbəkələrində həddindən artıq aktivliyin qarşısını sürətlə alır, beynin koordinasiyalı və ritmik fəaliyyətini təmin edirlər. Bu neyronların fəaliyyətinin pozulması və ya sayının azalması şizofreniya, epilepsiya və digər nevroloji xəstəliklərin inkişafı ilə əlaqələndirilir.**

Əsas çətinlik ondan ibarətdir ki, parvalbumin neyronları rüşeym dövründə beynin inkişafının daha gec mərhələlərində formalaşır. Bu səbəbdən onların laboratoriya şəraitində, o cümlədən kök hüceyrələrdən istifadə etməklə əldə edilməsi olduqca çətindir.

İsveçli alimlər bu problemin həlli üçün alternativ yanaşma təklif ediblər - qlial hüceyrələrin birbaşa yenidən proqramlaşdırılması. Qlial hüceyrələr normalda neyronların qidalanması, qorunması və beyin toxumasının strukturunun saxlanılması kimi dəstək funksiyalarını yerinə yetirir. Yeni metod glial hüceyrələrin "taleyini" dəyişən xüsusi genlər dəstinin aktivləşdirilməsinə əsaslanır. Bu genlər hüceyrənin parvalbumin neyronuna çevrilməsini təmin edir. Beləliklə, kök hüceyrə mərhələsi ötürülür və proses xeyli sürətlənir.

## Öpüş immunitet sistemini gücləndirir

**"Öpüşmək sağlamlığınızı yaxşılaşdırmağa və arıqlamağa kömək edə bilər". Bunu "Daily Star"a tanışlıq üzrə məşqçi Jacob Lucas deyib. O, öpüşün immunitet sistemini gücləndirdiyini və dişləri və diş ətlərini sağlam saxladığını deyib:**

"Çünki bu müddət ərzində bakteriya və viruslarla mübarizə aparan bir çox maddələr ehtiva edən tüpürcək intensiv şəkildə istehsal olunur. Mikrobların mübadiləsi də sağlamlığın yaxşılaşmasına kömək edir: bu, immunitet sistemini bədəndə infeksiyanın inkişafının qarşısını almaq üçün gücləndirilmiş rejimdə işləməyə məcbur edir".

Lukas həmçinin əlavə edib ki, öpüş arıqlamağa kömək edir.

"Ehtiraslı öpüşlər üzdə və bədəndə çoxlu əzələlərdən istifadə edir. Bəzi araşdırmalar bunun dəqiqədə 26 kilokalori yandıra biləcəyini göstərib. Bu, beş dəqiqədən az müddətdə 100 kilokaloridən artıqdır" - deyə izah edib. Mütəxəssisin fikrincə, öpüşərkən beyində dopamin, oksitosin və serotonin hormonlarının kokteyli əmələ gəlir və bunun sayəsində insan xoşbəxtlik, sevinc və eyforiya yaşayır. Öpüşmək həmçinin kortizol səviyyəsini azaldır ki, bu da rahatlamağa və stresdən azad olmağa kömək edir.

Nəhayət, öpüşmə zamanı ürək dərəcəsi artır. Bu, qan damarlarını genişləndirir və qan axını artırır, bu da miqren və menstrual krampları aradan qaldırmağa kömək edir.

Səhifəni hazırladı: SELCAN


Baş redaktor: Nazim SABİROĞLU

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Lisenziya N: B 114
SAYI: 1.500

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Son dakika" MMC-nin mətbəəsində çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.